# Naxçıvana uçuşlar...

AZAL Ermənistana 32 min avro ödəyib



**Azərbaycanın milli aviadaşıyıcısı olan "Azərbaycan Hava Yolları" aviaşirkəti (AZAL) Ermənistana aeronaviqasiya xidmətlərinə görə təxminən 32 min avro ödəyib.**

"APA-Economics"in məlumatına görə, bu barədə "Sputnik Armenia" Ermənistanın Mülki Aviasiya Komitəsinə istinadən xəbər verir.

Qeyd olunur ki, ötən ilin oktyabrın 6-dan AZAL Bakıdan Naxçıvana sərnişin reyslərinin həyata keçirilməsi üçün Ermənistanın hava məkanından istifadə etməyə başlayıb.

"Bildiririk ki, 2021-ci il oktyabrın 6-dan dekabrın 31-dək "Armaeronaviqasiya" tərəfindən AZAL-a aeronaviqasiya xidmətlərinin göstərilməsi üçün şirkət EUROCONTROL beynəlxalq təşkilatının mərkəzi marşrut haqları üzrə ofisi vasitəsi ilə 31 901,77 avro ödəyib", - məlumatda deyilir.

# Bakıda 13 yaşlı qız özünü körpüdən atdı

**Sabunçuda intihara cəhd hadisəsi qeydə alınıb.**

Medicina.az xəbər verir ki, hadisə Sabunçu rayonunda "Sabunçu körpü"sü kimi tanınan yerdə qeydə alınıb.

2009-cu il təvəllüdlü Abbaszadə Nailə Pərviz qızı körpünün üzərindən özünü atıb. O, ağır kəllə-beyin travması və çox saylı sınıq xəsarətləri alıb. Yaralı ağır vəziyyətdə xəstəxananın reanimasiya şöbəsinə çatdırılıb.


№ 30 (5552), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 17 fevral 2022-ci il (cümə axşamı)




# Dünya sağalır

ÜST: Koronavirusa yoluxma halları həftə ərzində 19 faiz azalıb

**Ötən həftə dünyada COVID-19 infeksiyasına 16 milyon 97 min 642 yoluxma halı aşkar edilib, bu da öncəki həftə ilə müqayisədə 19 faiz azdır. Həmçinin həftə ərzində ölüm hallarının sayı 4 faiz artaraq 74 min 494 nəfərə çatıb.**

Bu faktlar Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) həftəlik epidemioloji bülletenində yer alır.

Məlumata görə, ötən həftə Qərbi Sakit okean regionunda yoluxma halları 19 faiz artsa da, digər regionlarda azalma müşahidə olunub. Yoluxma sayındakı azalmalar Cənub-Şərqi Asiyada 37, Amerikada 32, Afrikada 30, Avropada 16, Şərqi Aralıq dənizi regionunda isə 12 faiz təşkil edib.

(səh.2)



## Ərdoğan Azərbaycan Prezidentinə təşəkkür edib

**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təşəkkür edib.**

Nazirlər Kabinetinin iclasından sonra çıxış edən Ərdoğan koronavirus xəstəliyinə yoluxması ilə əlaqədar ona və həyat yoldaşı Əminə xanıma öz adından şəfa diləklərini yetirdiyi üçün Azərbaycan dövlət başçısına təşəkkür edib.

## "Biz Azərbaycana Qarabağın tarixini öyrənmək üçün gəlmişik"



**"Mən üçüncü dəfədir ki, Azərbaycana gəlirəm. Biz buraya Qarabağ regionunun tarixini öyrənmək üçün gəlmişik."**

Bu fikirləri Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə səfər edən niderlandlı səyyah Boris Kester Şuşada AZƏRTAC-a müsahibəsində bildirib.

Qarabağda dağıdılmış binaları, eyni zamanda, aparılan tikinti işlərini gördüyünü deyən səyahətçi qeyd edib: "Şuşa çox maraqlı şəhərdir. İnanıram ki, Şuşanın tarixini daha dərindən öyrənəcəyəm".

# Bayramov, Çavuşoğlu və Lavrov telefonla danışıblar

Nazirlər üçtərəfli bəyanatların icrası ilə bağlı məsələləri müzakirə ediblər





**Dünən Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlu arasında telefon danışığı baş tutub.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, nazir Ceyhun Bayramov həmkarının COVID-19 testinin pozitiv çıxması xəbərini təəssüflə qarşıladığını bildirib və onun tezliklə tam sağalmasını diləyib.

Nazir Ceyhun Bayramov, həmçinin qısa müddətdə nazir Mövlud Çavuşoğlunu Azərbaycanda səfərdə görməkdən məmnun olacağını ifadə edib.

Dünən həmçinin Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov və Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov arasında da telefon danışığı olub.

Nazirlər ikitərəfli əməkdaşlıq gündəliyinin aktual məsələlərini müzakirə ediblər.

(səh.2)



## İçməli su ilə bağlı Milli Dövlət Standartı hazırlanıb

**"Suda kimyəvi maddələr, bakteroloji və digər göstəricilər araşdırılıb".**

APA xəbər verir ki, bunu Səhiyyə Nazirliyi Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin aparıcı məsləhətçisi Leyla Tağızadə "İçməli su, gigiyenik tələblər və keyfiyyət üzrə nəzarət" mövzusunda çıxışında deyib.

**O bildirib ki, Azərbaycanda suda orqanik keyfiyyət çox vaxt yaxşı olmur:**

"İçməli su, gigiyenik tələblər və keyfiyyət üzrə nəzarət" Milli Dövlət Standartı hazırlanıb. Bu standart 380 göstəriciyə görə hazırlanıb, həmçinin Avropa standartlarına uyğunlaşdırılıb" - o deyib.

# Azərbaycan nümayəndə heyətinin İrəvana səfəri gözlənilir

Baş tutsa, bu, müharibədən sonra ilk səfər olacaq

**Avronest Parlament Assambleyası bürosunun iclası 19-22 fevral tarixlərində Ermənistanın paytaxtı İrəvanda keçiriləcək.**

"Hraparak" qəzetinin məlumatına görə, Assambleyanın müxtəlif sahələr üzrə daimi komissiyalarının, Avronest Parlament Assambleyasının və Şərq Tərəfdaşlığının üzvləri Ermənistana səfər edəcəklər. Qəzet yazıb ki, Azərbaycan da ilkin olaraq iclasda iştirakını təsdiq edib və Azərbaycan nümayəndə heyətinin İrəvana səfər edəcəyi istisna edilmir.







(səh.3)

## Yoluxanların sayı yenə artdı

Daha 7 148 nəfər koronavirusa yoluxub, 22 nəfər vəfat edib




**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 7 148 yeni yoluxma faktı qeydə alınıb, 7 387 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 22 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 759 753 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 703 952 nəfər müalicə olunaraq sağalıb, 9 127 nəfər vəfat edib. 46 674 nəfər aktiv xəstə sayını təşkil edib.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 18 346, bu günə qədər isə ümumilikdə 6 432 504 test icra olunub.*

## Hazırlıq başlayıb

Azərbaycanda iqlim dəyişikliklərinə adaptasiya strategiyası tətbiq ediləcək



**Aqrar sahədə müasir dövrün çağırışlarına uyğun dayanıqlı inkişaf mexanizmləri formalaşdırmaq əsas vəzifələrdəndir.**

Bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi Aqrar siyasət komitələrinin təşkilatçılığı, Kənd Təsərrüfatı Nazirliyinin iştirakı ilə birgə keçirilən dinləmədə kənd təsərrüfatı naziri İnam Kərimov deyib.

Nazir Prezident İlham Əliyevin respublikanın prioritet inkişaf sahələrindən biri elan etdiyi aqrar sektorda əldə olunan uğurlu göstəriciləri diqqətə çatdırıb.

(səh.2)



## "Lerikdə işləyirəm, 700 manat maaş alıram"

Görmə əngəlli tarix müəlliminin cəsarəti, bilgisi, həyat fəlsəfəsi adamı heyran edir

(səh.4)

## Biri qorxudu...

Mülki ermənilərin silahlandırılmasının iki mümkün səbəbi var



(səh.3)

## 75 bələdiyyə sədri inzibati məsuliyyətə cəlb edilib

**Keçən il bələdiyyələrin 90 vəzifəli şəxsi barəsində inzibati xəta haqqında protokol tərtib edilərək məhkəmələrə göndərilib.**

APA xəbər verir ki, bu, fevralın 18-də Milli Məclisin Regional məsələlər komitəsində müzakirəyə çıxarılacaq "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzə" də əksini tapıb.

Bildirilib ki, həmin protokollar üzrə 75 bələdiyyə sədri inzibati məsuliyyətə cəlb edilib, 5 inzibati xəta protokoluna xitam verilib, 10 protokol isə baxılmaqdadır.

## Dünya sağalır

ÜST: Koronavirusa yoluxma halları həftə ərzində 19 faiz azalıb

**Ötən həftə dünyada COVID-19 infeksiyasına 16 milyon 97 min 642 yoluxma halı aşkar edilib ki, bu da öncəki həftə ilə müqayisədə 19 faiz azdır. Həmçinin həftə ərzində ölüm hallarının sayı 4 faiz artaraq 74 min 494 nəfərə çatıb.**



Azərtac xəbər verir ki, bu faktlar Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) həftəlik epidemioloji bülletenində yer alır. Məlumata görə, ötən həftə Qərbi Sakit okean regionunda yoluxma halları 19 faiz artsa da, digər regionlarda azalma müşahidə olunub. Yoluxma sayındakı azalmalar Cənub-Şərqi Asiyada 37, Amerikada 32, Afrikada 30, Avropada 16, Şərqi Aralıq dənizi regionunda isə 12 faiz təşkil edib.

Həftəlik ölüm sayı Şərqi Aralıq dənizi regionunda 38 faiz, Qərbi Sakit okean regionunda 27 faiz, Afrikada 14 faiz, Amerikada 5 faiz artıb. Eyni zamanda, Avropada bu göstərici dəyişməz qalıb, Cənub-Şərqi Asiya regionunda isə 9 faiz azalıb.

*Qeyd edək ki, 2020-ci ilin martında Ümumdünya Səhiyyə Təşkilatı COVID-19 infeksiyasının yayılmasını pandemiya elan edib. Pandemiyanın statistikasını aparan Worldometer portalının məlumatına görə, indiyədək dünyada koronavirusa yoluxanların sayı 416 milyon 440 min nəfəri ötüb, ölənlərin sayı 5 milyon 858 min 925 nəfərə çatıb, 339 milyon 357 min nəfər bu xəstəlikdən sağalıb.*

## Gürcüstanda benzin və dizelin qiyməti artıb

**Gürcüstanda benzin və dizelin qiyməti yenidən bahalaşıb.**

Azərtac xəbər verir ki, bahalaşma keçən ayla müqayisədə 5 faizdən 9 faizə qədər təşkil edib.

Hazırda 92 markalı benzinin qiyməti 3,16 lari (artım 6,84 faiz), super 95 markalı benzinin qiyməti 3,25 lari, premium (98 marka) benzinin bir litri isə 3,33 lari olub. Dizel yanacağının qiyməti isə 8,63 faiz artaraq 3,19 lariyə çatıb.

# Bayramov, Çavuşoğlu və Lavrov telefonla danışıblar

Nazirlər üçtərəfli bəyanatların icrası ilə bağlı məsələləri müzakirə ediblər




**Dünən Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlu arasında telefon danışığı baş tutub.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, nazir Ceyhun Bayramov həmkarının COVID-19 testinin pozitiv çıxması xəbərini təəssüflə qarşıladığını bildirib və onun tezliklə tam sağalmasını diləyib.

Nazir Ceyhun Bayramov, həmçinin qısa müddətdə nazir Mövlud Çavuşoğlunu Azərbaycanda səfərdə görməkdən məmnun olacağını ifadə edib.

Dünən həmçinin Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov və Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov arasında da telefon danışığı olub.

Nazirlər ikitərəfli əməkdaşlıq gündəliyinin aktual məsələlərini müzakirə ediblər. Cari ildə iki dövlət arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd olunacağını nəzərə alaraq, tərəflər bu xüsusda təşkil ediləcək tədbirlərə dair fikir mübadiləsi aparıblar.

Nazirlər, regiondakı vəziyyət, o cümlədən üçtərəfli bəyanatların icrası ilə bağlı məsələləri müzakirə ediblər.

Tərəflər, həmçinin Ukrayna ətrafındakı mövcud vəziyyətə dair fikir mübadiləsi aparıblar.

Telefon danışığı zamanı, habelə Azərbaycanın ATƏT-in Təhlükəsizlik üzrə Əməkdaşlıq Forumunda sədrliyi çərçivəsində əməkdaşlıq müzakirə mövzusu təşkil edib.

Qeyd edək ki, Türkiyənin xarici İşlər naziri Mövlud Çavuşoğlu ilə rusiyalı həmkarı Sergey Lavrov arasında da telefon danışığı olub.

Türkiyə XİN məlumat yayıb ki, danışıqlar zamanı Rusiya ilə Ukrayna arasındakı gərginliyə dair son yeniliklər müzakirə olunub.

M.Çavuşoğlu Türkiyənin Rusiya və Ukrayna arasında keçiriləcək iclaslara ev sahibliyi edə biləcəyini vurğulayıb.

S.Lavrov isə öz növbəsində türkiyəli həmkarına təşəkkürünü bildirərək, 11-13 mart tarixlərində Antalyada keçiriləcək Antalya Diplomatik Forumuna qatılacağını qeyd edib.

**Sənan**

# Az qalıb, qazdıqları səngərdə boğulacaqlar

Azərbaycanın Qarabağa tam nəzarət etməsi sadəcə zaman məsələsidir

**Qarabağdakı separatçılar "kənd təsərrüfatı işləri" adı altında torpaqlarımızda səngər qazmağa cəhd ediblər. Qanunsuz qazıntılar müşahidə edildikdən sonra bölmələrimiz tərəfindən təxirəsalınmaz tədbirlər həyata keçirilib.**

Nəticədə səngər qazıntılarının qarşısı alınıb. Xatırladaq ki, torpaqlarımızdakı separatçılar bütün təxribatlarını bölgəyə nəzarət edən Rusiya sülhməramlılarının gözü qarşısında həyata keçirirlər. **Torpaqlarımızdakı qanunsuz silahlı dəstələrin növbəti təxribatını "Şərq"ə dəyərləndirən politoloq Turab Rzayev deyib ki, məqsəd Azərbaycan tərəfini qıcıqlandırmaq və aqressiv hərəkətlərə məcbur etməkdir. Analitik vurğulayıb ki, separatçılar tarix səhnəsindən silindiklərini qəbul etmək istəmir:** "Hər vəchlə çalışırlar ki, özlərini xatırlatsınlar. Məhz ona görə mütəmadi "hərbi təlimlər" keçirir, "səfərbərlik elan edir", yaxud səngər qazırlar. Belə təxribatlar gözləniləndir. Burada separatçıların "özünütəsdiqindən" başqa Rusiya amili də var. Sülhməramlılar separatçıların qanunsuz hərəkətlərinə göz yummaqla bir növ təşkilatçı rolunda çıxış edirlər. Şuşa Bəyannaməsindən sonra Azərbaycanın ərazi bütövlüyünün qarantı həm də qardaş Türkiyədir. Rəsmi Bakı Türkiyə ilə birlikdə həm xarici siyasətini, həm də təhlükəsizliyini koordinasiya edir. Bunlar Rusiya üçün narahatedici amillərdir. Rusiyanın postsovet ölkələri üzərindəki təzyiqi məlumdur və bu baxımdan Moskva Şuşa Bəyannaməsinə qısqanclıqla yanaşır. Ermənilərin vasitəsi ilə həyata keçirilən bütün təxribatlar Azərbaycana təzyiq göstərmək məqsədi daşıyır. Rəsmi Bakıya qarşı psixoloji müharibə aparırlar. Daha doğrusu, Türkiyə ilə yaxınlığa görə Azərbaycanı "cəzalandırırlar". Amma bütün cəhdlər uğursuz olacaq. Azərbaycanın Qarabağa tam nəzarət etməsi sadəcə zaman məsələsidir".



**İsmayıl Qocayev**



## "Həyəcan" siqnalı

Hərbi hissələrin döyüşə hazırlığı qəfil yoxlanılıb

**Azərbaycan Respublikasının müdafiə nazirinin təsdiq etdiyi 2022-ci il döyüş hazırlığı planına əsasən Quru Qoşunlarının, o cümlədən Hərbi Dəniz Qüvvələrinin hərbi hissə və birləşmələrində bölmələrin döyüşə hazırolma vəziyyəti qəfil yoxlanılıb.**

"Şərq" xəbər verir ki, bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

Xəbərə görə, yoxlamalar zamanı "Həyəcan" siqnalı ilə qaldırılaraq təyinat rayonuna çıxarılan tank bölmələrinin tapşırıqları dəqiqləşdirilib. Hərbi Dəniz Qüvvələrinin xüsusi təyinatlıları və hərbi gəmilərin heyətləri tərəfindən Xəzər dənizinin Azərbaycana məxsus sektorunda əməliyyat şəraiti, eləcə də strateji təyinatlı infrastrukturların mühafizəsi üzrə döyüş tapşırıqları barədə məruzələr dinlənilib.

Yoxlamaların keçirilməsində əsas məqsəd qoşun növü bölmələrinin qarşılıqlı əlaqədə döyüşə hazırolma vəziyyətinə gətirilmə vərdişlərinin, eləcə də komandir heyətinin yaranmış şəraitə uyğun vəziyyəti qiymətləndirmə və çevik qərar qəbuletmə bacarıqlarının təkmilləşdirilməsidir.

## "O, vurulmuş NATO pilotudur"

Rusiya XİN: "Stoltenberq daha bizi maraqlandırmır"



**"Bizi Stoltenbergin (Yens Stoltenberq-red.) verdiyi bəyanat maraqlandırmır. Hələ aydınlaşdıra bilməmişəm ki, o, baş katibdir, ya bankirdir".**

APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bu gün keçirdiyi brifinqdə bildirib.

Rusiya XİN sözçüsü NATO baş katibinin dediklərinin ölkəsini maraqlandırmadığını söyləyib: "O, daha bizi maraqlandırmır. Bu, o adam deyil ki, dedikləri Moskvada ciddi arqumentlər kimi qəbul olunsun. O artıq vurulmuş NATO pilotudur. Ona görə də, biz ciddi söhbətə yönələcəyik, əgər bizim qərbli həmkarlarımız hazırdırlarsa... Prezidentimiz, xarici işlər naziri və müdafiə nazirimiz dediyi kimi cavab (Rusiyanın təhlükəsizlik zəmanətləri ilə bağlı təkliflərinə ABŞ və NATO-nun reaksiyasına cavab-red.) hazırlığın final mərhələsindədir, o veriləcək və nəşr olunacaq".

## TƏBİB-ə yeni mətbuat katibi təyin olundu



**"Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin (TƏBİB) ictimaiyyətlə əlaqələr və tədbirlər şöbəsinə müdir təyin olunub.**

TƏBİB-in sədri vəzifəsini icra edən Vüqar Qurbanovun əmri ilə bu vəzifə Zamirə Ədilovaya həvalə olunub. O, 14 fevral tarixindən etibarən vəzifəsinin icrasına başlayıb.

# Hazırlıq başlayıb

Azərbaycanda iqlim dəyişikliklərinə adaptasiya strategiyası tətbiq ediləcək



**Aqrar sahədə müasir dövrün çağırışlarına uyğun dayanıqlı inkişaf mexanizmləri formalaşdırmaq əsas vəzifələrdəndir.**

APA xəbər verir ki, bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi Aqrar siyasət komitələrinin təşkilatçılığı, Kənd Təsərrüfatı Nazirliyinin iştirakı ilə birgə keçirilən dinləmədə kənd təsərrüfatı naziri İnam Kərimov deyib.

Nazir Prezident İlham Əliyevin respublikanın prioritet inkişaf sahələrindən biri elan etdiyi aqrar sektorda əldə olunan uğurlu göstəriciləri diqqətə çatdırıb. Son beş ildə aqrar sahədə məhsul artımının təxminən 25 faiz təşkil etdiyini deyən nazir kənd təsərrüfatı üzrə müsbət inkişaf dinamikasının 2021-ci ildə də davam etdiyini, ümumi istehsal həcmində 3,4 faizlik artım qeydə alındığını açıqlayıb. Keçən il taxılçılıq, pambıqçılıq və digər önəmli sahələrdə məhsuldarlığa diqqət çəkən nazir ölkəmizin kənd təsərrüfatı məhsullarının ixracı, bir çox məhsullar üzrə özünütəminetmədə müsbət dinamikanı göstərən rəqəmləri səsləndirib. O, ərzaq təhlükəsizliyinin təmini sahəsində Kənd təsərrüfatı Nazirliyinin üzərinə düşən vəzifələrdən, bu istiqamətdə görülən işlərdən danışıb. Aqrar sahədə tətbiq olunan yeniliklərdən, institusional islahatlardan bəhs edən nazir Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminin yaradılması, texnika və damazlıq heyvan satışı bazarının artıq tam liberallaşması, bazar iqtisadiyyatı tələblərinə uyğun aqrar sığorta sisteminin tətbiqi barədə məlumat verib.

Aqrar sahədə müasir dövrün çağırışlarına uyğun dayanıqlı inkişaf mexanizmləri formalaşdırmağın, iqlim dəyişikliklərinə adaptasiya strategiyasını tətbiq etməyin əsas vəzifələrdən olduğunu qeyd edən nazir mövcud olan məhdud torpaq və su resurslarından səmərəli istifadənin aktuallığını xüsusi vurğulayıb.

# Türkiyə-İsrail əlaqələri bərpa olunur

Münasibətlərin normallaşmasında Azərbaycanın da rolu var

**İsrail Prezidenti İshaq Hersoq martın 9-10-da Türkiyəyə səfər edəcək. Türkiyə lideri Rəcəb Tayyib Ərdoğan yanvar ayında elan etmişdi ki, Hersoq Ankaraya səfər edə bilər.**

Yanvarın 20-də Türkiyə Xarici işlər naziri Mövlud Çavuşoğlu ilə israilli həmkarı Yair Lapid arasında 13 ildən sonra baş tutan telefon danışığı da diqqət çəkmişdi. İki ölkə arasında 2010-cu ildən Fələstin məsələsində gərginlik yaşanır. Siyasi əlaqələr kəsilsə də, iqtisadi münasibətlər davam edir. Məhz iqtisadi əlaqələr və dəyişən geosiyasi maraqlar reallaşarsa, İsrail Avropa bazarına çıxış əldə edər. Layihə ilə bağlı əsas problemlərdən biri "East-Med" qaz kəmərinin Türkiyədən yan keçməklə Avropaya qaz ixracını nəzərdə tutmasıdır. Türkiyənin İsraillə bu məsələdə uzlaşmaq istədiyi görünür. Ankara "East-Med" qaz kəmərinin Türkiyədən yan keçməsini deyil, əksinə, onun ərazisi ilə TAP və TANAP layihəsinə birləşməsini arzulayır. Hersoqun Türkiyəyə səfəri zamanı tərəflər arasında əsas müzakirə mövzusu bu olacaq".



yenidən siyasi əməkdaşlığın qurulmasını zəruri edir.

**Politoloq Turan Rzayev "Şərq"ə bildirib ki, İsrail-Türkiyə münasibətlərinin normallaşması həm də Türkiyənin enerji siyasəti ilə bağlıdır. Ekspert vurğulayıb ki, Türkiyə regionda enerji daşıyıcısı olmaq niyyətindədir:** "İsrail də öz növbəsində "Tamar" və "Leviatan" qaz yataqlarından Avropaya qaz ixrac etməklə regionda önəmli enerji oyunçusuna çevrilmək istəyir. Lakin bu ölkənin nə Avropa ilə, nə də Türkiyə ilə birbaşa quru bağlantısı var. Bunu Ankara da yaxşı bilir. Türkiyə enerji ölkəsi deyil. Əksinə, təbii qaz asılılığı olan ölkədir. Bununla belə Ankara daşıyıcı ölkə olaraq İsrail qazını Avropaya daşıya bilər. Bu istiqamətdə İsrailin "EastMed" layihəsi yenidən gündəmə gəlir. Əgər uzunluğu 1900 km olan və Avropaya ildə 10 milyard kubmetr təbii qaz nəql etmək potensialına malik qaz kəməri

"Türkiyənin Fələstin siyasəti dəyişəcəkmi" sualına isə analitikin cavabı belə olub: "Ankaranın bu məsələdə mövqeyi dəyişməz qalacaq. Türkiyənin Qüdsün İsrailin paytaxtı olması məsələsi ilə barışacağını gözləmirəm. Ancaq bu məsələnin tərəflər arasında gərginlik predmeti olacağını da zənn etmirəm. Türkiyə qədər İsrail də münasibətlərin normallaşmasını istəyir. Rəsmi Təl-Əviv təkcə Türkiyə ilə deyil, həm də ərəb ölkələri ilə münasibətləri normallaşdırmaq arzusundadır".

**T.Rzayevə görə, Türkiyə-İsrail münasibətlərinin normallaşmasında Azərbaycanın da rolu var:** "İsrail-Türkiyə münasibətlərinin pisləşməsi Bakıya da sərf etmir. Hətta deyərdim ki, Qarabağın işğaldan azad edilməsi İsrail-Türkiyə gərginliyinə görə bir neçə il yubandı. Türkiyə və Azərbaycan qardaş ölkələrdir. İsrail də Bakının ən yaxın və etibarlı strateji tərəfdaşıdır. 2010-cu ildən bəri Azərbaycanın ayrılıqda İsrail və Türkiyə ilə münasibətləri inkişaf etdirməsi paralel olaraq iki ölkə arasında uzlaşma yolları axtarması nəticədə öz bəhrəsini verdi. Rəsmi Bakı 44 günlük müharibə zamanı həm Türkiyəyə məxsus "Bayraqdar", həm də İsrailin "Harop" tipli PUA-larından istifadə etdi. Faktiki olaraq müharibə zamanı iki əks mövqeli ölkənin Qarabağ məsələsində ortaq məxrəcə gəldiyini göstərdi. İki ölkə də rəsmi Bakıya müharibə zamanı tam dəstək ifadə etdi. Azərbaycan göstərdi ki, İsrail və Türkiyə nəinki ortaq hərəkət edə bilər, hətta yenidən əməkdaşlıq qura da bilərlər".

**İsmayıl Qocayev**

# Azərbaycan nümayəndə heyətinin İrəvana səfəri gözlənilir

## Baş tutsa, bu, müharibədən sonra ilk səfər olacaq







**Avronest Parlament Assambleyası bürosunun iclası 19-22 fevral tarixlərində Ermənistanın paytaxtı İrəvanda keçiriləcək.**

"Hraparak" qəzetinin məlumatına görə, Assambleyanın müxtəlif sahələr üzrə daimi komissiyalarının, Avronest Parlament Assambleyasının və Şərq Tərəfdaşlığının üzvləri Ermənistana səfər edəcəklər. Qəzet yazıb ki, Azərbaycan da ilkin olaraq iclasda iştirakını təsdiq edib və Azərbaycan nümayəndə heyətinin İrəvana səfər edəcəyi istisna edilmir.

"Biz Avronest-in Ermənistan nümayəndə heyətinin rəhbəri Mariya Karapetyandan Azərbaycan nümayəndə heyətinin Yerevana gəlib-gəlməyəcəyini öyrənməyə çalışdıq. O qeyd etdi ki, hazırda onların gəlib-gəlməməsi bəlli deyil, lakin onların gəlmə ehtimalı yüksəkdir", - deyə "Yerevan Today. Rus" qəzetindən sitat gətirilib.

**Millət vəkili Rasim Musabəyov Sputnik Azərbaycan-a ölkəmizin nümayəndə heyətinin Yerevanda keçiriləcək Avronest toplantısına qatılması məsələsindən danışıb.**

Deputat bunun ilk dəfə baş vermədiyini söyləyib. Onun sözlərinə görə, Avronest-in Azərbaycan nümayəndələri əvvəllər də Ermənistana səfər ediblər: "İkinci Qarabağ müharibəsindən əvvəl Yerevanda müxtəlif komitələrin iclasları keçirilirdi və orada azərbaycanlı deputatlar da iştirak edirdilər".

"Belə bir səfər qeyri-adi deyil, lakin bu, müharibədən sonra ilk dəfə olacaq. Düşünürəm ki, səfər həm Azərbaycan, həm də Ermənistan ictimaiyyəti tərəfindən müsbət qarşılanacaq", - deyə millət vəkili bildirib.

Ermənistan tərəfi ilə mümkün pərdəarxası dialoqa gəlincə, Rasim Musabəyov bildirib ki, əgər imkan olsa, Azərbaycan tərəfi bundan istifadə edəcək, baxmayaraq ki, əvvəllər belə dialoqlar nəzərdə tutulmayıb.

**Millət vəkili, Avropa Şurası Parlament Assambleyasındakı (AŞ PA) nümayəndə heyətinin üzvü olmuş Asim Mollazadə də bildirib ki, Azərbaycan nümayəndə heyəti Ermənistandakı iclaslara qatılıb. Lakin deputat budəfəki sessiyada Azərbaycandan nümayəndə heyətinin iştirakından xəbərsiz olduğunu söyləyib:** "Məndə bununla bağlı məlumat yoxdur. Hələlik açıqlanmayıb. Amma deyim ki, Azərbaycan nümayəndələri İrəvandakı, Ermənistan təmsilçiləri də Bakıdakı iclaslarda iştirak ediblər. Bu, Ermənistanla bağlı deyil, beynəlxalq təşkilatın davamlı keçirdiyi mühüm tədbirlərdəndir. İrəvanın buna razılıq verib-verməməsi önəm kəsb etmir. Avropa Birliyi "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində Avronest Parlament Assambleyası yaradıb. Avronestin, o cümlədən ayrı-ayrı komitələrinin iclasları müharibəyədək Bakıda da, İrəvanda da keçirilib. Bizim iştirakımızla bağlı qərarı Avronest verəcək".

**İsmayıl Qocayev**



# Biri qorxudu...

## Mülki ermənilərin silahlandırılmasının iki mümkün səbəbi var

**Xankəndidəki separatçı-terrorçu rejimin "parlamenti" "işğal olunmuş ərazilər haqqında" qondarma "qanun layihəsi"ni birinci oxunuşda qəbul edib. Qondarma "qanun"a Şuşa, Xocavənd, Ağdərə, Hadrut, Əsgəran, Laçın, eləcə də Goranboy və keçmiş Xanlar rayonu daxildir.**

Terrorçu rejimin "qanunu" praktiki olaraq əhəmiyyətsizdir. Separatçıların özləri də praktikada necə tətbiq edəcəklərini bilmədiklərini deyir. Lakin qondarma "qanun"dan Qarabağın "statusu" məsələsində istifadə etmək istədikləri bəllidir. Bunun fonunda separatçılar hərbi müstəvidə də fəaliyyətini genişləndirir. Separatçı rejim Qarabağda mülki ermənilərin də silahlandırılması istiqamətində işləyir. Qondarma "təhlükəsizlik şurası"nın katibi Vitali Balasanyanın təşəbbüsü ilə mülki ermənilər hərbi təlimlərə cəlb olunacaq. Fevral-may ayları olmaqla 3 ay davam edəcək təlimlərdə atəş hazırlığı üzrə dərslər keçiriləcək.

**Siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə vurğulayıb ki, mülki ermənilərin silahlandırılmasının iki mümkün səbəbi var. Analitikə görə, separatçılar silahlı dəstələrdə canlı qüvvə çatışmazlığını bu yolla aradan qaldırmaq istəyir:** "Mülki ermənilərin gələcəkdə Azərbaycan vətəndaşlığını qəbul etməsi perspektivinin qarşısı alınır. "Təlimlərin" önümüzdəki 3 ay müddətində nəzərdə tutulması isə separatçıların cari dövrə hazırlaşdığından da xəbər verir. Mümkündür ki, terrorçu rejim Azərbaycanın hərbi müstəvidə ata biləcəyi addımların qorxusu ilə silahlı dəstələrini gücləndirir. Lakin qondarma "qanunun" qəbulu və azad olunan ərazilərin yenidən işğal edilməsi planı separatçı-terrorçu rejimin "təlimlər" zamanı, xüsusilə yaz-yay aylarında Azərbaycan Ordusunun hazırda dayandığı mövqelərə təxribat hücumları həyata keçirə biləcəyini də istisna etmir. Erməni əhalinin silahlanması və mümkün təxribatlara qoşulması "əhali öz müqəddəratını təyin etmək istəyir" məsələsinin aktullaşmasına şərait yarada bilər. Bu, rusların da "təhlükəsizliyi qorumaq" adı ilə bölgədə qalması imkanlarını artırır".

**İsmayıl**




# Ortaq məxrəcə gəlirlər

## Münasibətlər normallaşır, Ukrayna NATO-nun üzvü olmayacaq

**ABŞ dövlət katibi Entoni Blinken və Rusiyanın Xarici işlər naziri Sergey Lavrov arasında telefon danışığı baş tutub. Bu barədə "Reuters" Dövlət Departamentindəki rəsmi mənbəyə istinadən məlumat yayıb.**

Bundan əvvəl fevralın 12-də ABŞ-ın təşəbbüsü ilə tərəflərin telefon danışığı baş tutub. Rusiya və Ukrayna arasındakı mövcud vəziyyət müxtəlif proqnozların səslənməsinə səbəb olur. Qərb tezliklə savaşın başlayacağını iddia etsə də, Rusiya tərəfdən hələ ki, buna dair açıqlamalar öz əksini tapmır.

**Müzakirələri "Şərq"ə şərh edən analitik Azər Rəşidoğlu bildirib ki, məsələlərin hərbi müstəviyə keçəcəyini düşünmür:** "Rusiya və Ukrayna arasında ciddi savaşın başlayacağını düşünmürəm. Sadəcə olaraq, Rusiya Ukraynanın NATO-nun üzvü olacağına etiraz edir. Bununla da NATO-nun şərqə doğru irəliləməsinin qarşısını almaq istəyir".

Politoloq tərəflər arasındakı vəziyyətin normallaşacağı qənaətindədir: "Güman edirəm ki, bir müddətdən sonra münasibətlər səngiyəcək və dövlətlər ortaq məxrəcə gələcəklər. Yəni Ukrayna NATO-nun üzvü olmayacaq. Bununla da NATO şərqə doğru irəliləyə bilməyəcək. Nəticədə münasibətlər səngiməyə doğru hərəkət edəcək."

**Çimnaz Şahlar**

# Müharibə riski azaldıqca qazın qiyməti ucuzlaşacaq

## "Avropa istəyir ki, nə qədər mümkündürsə, o qədər qaz göndərək"

**Avropa ölkələrində yeraltı qaz anbarlarında yay aylarında toplanmış qaz ehtiyatının 90,8 faizi istifadə olunub.**

Bu barədə "Gas Infrastructure Europe" təşkilatı bildirib.

Qeyd olunur ki, fevralın 12-nə olan vəziyyətə görə, yeraltı qaz anbarlarında aktiv qaz ehtiyatlarının həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 22,9 faiz və 9,9 milyard kubmetr azdır. Eyni zamanda "Gas Infrastructure Europe"nin hesabatına əsasən Avropanın yeraltı qaz anbarlarında doluluq səviyyəsi 34 faizdən aşağı düşüb.

Ötən ayın sonunda doluluq səviyyəsi 40 faizə yaxın idi.



Avropada təbii qaz ehtiyatına tələbat genişlənir. Rusiya və Ukrayna arasındakı gərginlik təhlükəni daha da artıra bilər. Çünki Avropanı rəsmi Kiyev qaz ilə təchiz edir. Azərbaycanla Qərbə qaz tədarükü ilə bağlı müzakirələr aparılır. Məsələn, Trans-Adriatik (TAP) boru kəməri vasitəsilə hər il təxminən 8 milyard kubmetr Azərbaycan qazı İtaliyaya nəql olunur.

**Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən iqtisadçı Xalid Kərimli təkcə qaz qiymətlərində yox, əmtəə qiymətlərində də kəskin bahalaşmanın olduğunu vurğulayıb:** "Siyasi məsələlər və müharibə riskləri qazın tarifinə təsir edir və qiyməti sürətli şəkildə bahalaşdırır. Təbii ki, ölkələr də öz enerji təhlükəsizliyini təmin etmək məqsədi ilə ehtiyatlarını artırırlar. Hamı da bunu etmək istəyəndə qiymət yenidən yüksəlməyə başlayır. Məsələn, həmin ölkələr əvvəldən bilirdilər ki, problem olmayacaq, az ehtiyat götürürdülər. İndi problem ehtimalı var deyə daha çox tədarük almaq istəyirlər və nəticədə qiymətlər bahalaşır. Həm qış sezonu yekunlaşır, həm də Rusiya-Ukrayna gərginliyində bir az yumşalmalar müşahidə olunur. Bunlar qazın qiymətinin bir az aşağı düşməsinə gətirib çıxara bilər".

***Ekspert Azərbaycan və Avropa əlaqələrindən də söz açıb:***

"Azərbaycan Qərbin enerji təchizatında Cənub Qaz Dəhlizi layihəsi vasitəsilə iştirak edir. Ümumiyyətlə, TANAP qaz kəmərinin illik tutuculuğu 16 mlrd kub metrdir. Bu 30 mlrd. kub metrə qədər artırıla bilər. TAP-ın ötürücülük qabiliyyəti isə 10 mlrd. kub metrdir. 20 mlrd. kub metrə qədər qaldırıla bilər.

2020-ci ildə Avropaya cəmi 4 mlrd. kub metr qaz ixrac etmişik. 2021-də bunu 7 mlrd. kub metrə qədər yüksəltmişik. Bu il isə, 10 mlrd. kub metrə çatdırıla bilər. Gələcəkdə daha da artırılması haqqında düşünürük. Bütün bu rəqəmlər Qərbin qaz tələbatının 1-2 faizini təşkil edir".

***İqtisadçının fikrincə, Azərbaycanın bu sahədə potensialı olmadığı üçün Rusiyanın yerini tuta bilməz:***

"Azərbaycanın Rusiyanı Avropa bazarında əvəzləməsini fikirləşmək yalnız xəyaldır. Nə iri həcmdə qaz göndərə biləcək borumuz var, nə də ehtiyatımız. Bu, diversifikasiya üçün əhəmiyyətlidir. Avropa istəyir ki, biz nə qədər mümkündürsə, o qədər qaz göndərək. Yaponiya da öz ehtiyatından artıq qalan sıxılmış qazı Qərbə yönləndirir. Əslində, Rusiyanın "Qazprom" şirkəti Avropaya qaz göndərir. Hazırkı siyasi proseslər enerji bazarında gərginlik yaradır. Azərbaycanın nüfuzu güclənsə də, imkanlarımız məhduddur. Yalnız bağlanmış müqavilələrə əsasən qazla təchiz edirik".

**Cəmilə Əzim**

# Siyasi ədəbsizlik...

## UNESCO erməni lobbisinin təsirinə düşərək hər yerdə "erməni mədəni irsi" axtarmağa çalışır

**"Ermənistan UNESCO missiyasının Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə səfəri ilə bağlı manipulyasiya edərək yenidən "buynuz" çıxarmağa çalışır".**




*Bu barədə "Şərq"ə açıqlamasında siyasi şərhçi Aqşin Kərimov deyib.* Analitik bildirib ki, fevralın 4-də keçirilən görüşdə UNESCO missiyasının Azərbaycana və Ermənistana göndərilməsinə dair razılıq ifadə edilib. Ancaq UNESCO erməni lobbisinin təsirinə düşərək hər yerdə "məhv edilmiş erməni mədəni irsi" axtarmağa çalışır: "Qurumun sözçüsü Tomas Mallard "Armenpress"ə deyib ki, qurum "Dağlıq Qarabağa" müstəqil texniki missiya göndərmək üzərində işləyir. İşlətdiyi "Dağlıq Qarabağ" ifadəsi qələtdir. Bu qələti bəlkə də bağışlamaq olardı. Düşünərdik ki, cənab Mallard özünün lüğət leksikonunu Cənubi Qafqazdakı yeni reallığa uyğunlaşdıra bilməyib. Ancaq səbəb nə olursa-olsun, UNESCO Mallardın timsalında Azərbaycanın hədəf tablosuna çıxır. Birincisi, təşkilatın nümayəndəsi Dağlıq Qarabağ dedikdə nəyi nəzərdə tutur? Axı belə bir ərazi vahidi yoxdur. Onun dediyi Azərbaycanın suverenliyinə hörmətsizlik, erməni propaqandasına xidmətdən başqa bir şey deyil. İkincisi, təşkilat nə vaxtdan siyasi bəyanatlar verməyə başlayıb? UNESCO özünü Fransa Xarici İşlər Nazirliyinin bir departamenti kimi aparır və açıq-aydın erməni maraqlarına xidmət etdiyi görünür. "Dağlıq Qarabağ" ifadəsini də keçdik. Mallardın dediklərində gizlənən digər mahiyyəti də əfv etmək adekvat davranış olmaz".

**Ekspertin fikrincə, Azərbaycan belə bir missiyanın həyata keçirilməsi üçün 20 ildən artıq bir müddət ərzində israrlı şəkildə UNESCO-ya müxtəlif çağırışlar edib, bununla bağlı çoxsaylı məktublar ünvanlayıb:** "Ancaq qurum özü 2005-ci il üzrə hesabatında etiraf edib ki, Ermənistan bu səfərin qarşısına sədd çəkib. Belə əsaslandırma aparıb ki, Azərbaycan torpaqları Ermənistanın işğalı altındadır və səfərin məhz Ermənistan tərəfindən qarşısı alınıb. Qısası, təşkilat Azərbaycan torpaqlarının işğalda olduğu müddətdə Bakının müraciətlərini qulaqardına vurub. İndi isə fevralın 4-də əldə edilmiş razılığı saxta erməni tarixinin xeyrinə yönəldən birtərəfli operativlik nümayiş etdirir. Həmin müraciətlərə biganə qalan UNESCO indi, tez bir şəkildə ilk olaraq Azərbaycanın işğaldan azad edilmiş ərazilərində "tarixi erməni izləri"ni axtarmağa çalışır. Cənab Mallard qeyd edir ki, mədəni irs mövzusu siyasi alətə çevrilməməlidir, amma belə qərəzli operativliklə mövzunu ermənilərin xeyrinə calamağa çalışır ki, bunun özü siyasi ədəbsizlikdir".

**İsmayıl Qocayev**

**Rusiya Krımda təlimləri başa çatdırıb və silahlı qüvvələrinin bir hissəsini Ukrayna sərhədinə yaxın ərazilərdəki bazalarına çəkməyə başlayıb.**



# Rusiya qoşunları Ukrayna sərhədindən çəkildi

## Fransa və İspaniya rəsmiləri bunu "əla" xəbər kimi qiymətləndirib

"Şərq" xəbər verir ki, bu barədə Rusiya Müdafiə Nazirliyi məlumat verib.

Nazirliyin yaydığı video görüntülərdə Rusiya tank və zirehli texnikasının dəmir yolu yük qatarlarına yüklənərək hərbi bölgələrə qayıtması da əks olunub.

Rusiya Müdafiə Nazirliyinin mətbuat katibi İqor Konaşenkov bildirib ki, Rusiyanın Ukrayna ilə sərhədə yaxın hərbi bölgələrdəki bəzi bölmələri irimiqyaslı hazırlıq təlimlərini başa vuraraq, dəmir yolu və avtomobil nəqliyyatı ilə öz bazalarına qayıdıblar.

Bununla belə, bəzi Qərb siyasətçiləri Rusiya ilə Ukrayna arasında müharibənin baş verəcəyinin hələ də mümkün olduğunu deyirlər. Digər tərəfdən, bəzi Qərb ölkələri rus qoşunlarının çıxarılması xəbərini müsbət qarşılayıb. Fransa hökumətinin sözçüsü Marsel Attar bildirib ki, xəbər təsdiqlənərsə, bu, "müsbət əlamət" olacaq. İspaniyanın Xarici işlər naziri Jose Manuel Albares rus qoşunlarının geri çəkilməsini "əla xəbər" kimi qiymətləndirib.

**Çimnaz Şahlar**

# Rusiyanın addımları dünyaya meydan oxumaqdır

## "Kreml göstərmək istəyir ki, keçmiş sovet respublikalarının əraziləri onun monopoliyasındadır"



**Müstəqil Dövlətlər Birliyi (MDB) Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı yanında müşahidəçi statusu almağı düşünür. Bu barədə MDB İcraiyyə Komitəsi sədrinin 1-ci müavini Leonid Anfimov məlumat verib.**

Onun sözlərinə görə, daimi nümayəndələrin qapalı iclasında təşkilata KTMT yanında müşahidəçi statusunun verilməsi məsələsinə baxılacaq. Ekspertlər bu təşəbbüsü Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının genişləndirilməsi istiqamətində Moskva tərəfindən atılan növbəti addım kimi dəyərləndirirlər. Onların fikrincə, region ölkələrini KTMT-yə birbaşa cəlb etməyi bacarmayan Kreml müxtəlif metodlarla niyyətini gerçəkləşdirməyə çalışır.

**Politoloq Azər Qasımov "Şərq"ə açıqlamasında deyib ki, bu, Rusiyanın oynadığı oyunlar içərisində ən absurdudur. Analitikin sözlərinə görə, hansısa təşkilatın başqa bir quruma üzv olması, müşahidəçi statusu alması praktikasına dünyada rast gəlinməyib:** "MDB üzvlərinin KTMT-yə üzv olanları da var, olmayanları da. Azərbaycan da daxil KTMT-yə üzv olmayanlar quruma girməyi qəti rədd edirlər. Görünür, Rusiya bəzi post-sovet ölkələrinin adından qərar vermək niyyətindədir. Əslində Ukrayna böhranında Rusiyanın güc nümayişindən sonra bu, gözlənilən idi. Rusiya Ukrayna ətrafına ordu yığmaqla Qərbə yox, MDB ölkələrinə güc nümayiş etdirirdi. Ukrayna ətrafında vəziyyət stabilləşməmiş Rusiyanın belə bir təşəbbüs ortaya atması dünya birliyinə meydan oxumaqdır. Kreml göstərmək istəyir ki, keçmiş sovet respublikalarının əraziləri onun monopoliyasındadır".

**A.Qasımov vurğulayıb ki, KTMT üzvü olmayan postsovet ölkələri Rusiyadan daha da uzaqlaşacaq:** "Rusiyanın məqsədi aydındır. Müstəqilliyini qorumaq istəyən hər bir dövlət çıxış yolu axtarır. Azərbaycan Kremlin hədəsindən özünü Şuşa Bəyannaməsi ilə mühafizə edir. Bu baxımdan bizi nisbətən az təhlükə gözləyir".

**İsmayıl Qocayev**

**Xəbər verdiyimiz kimi, Azərbaycanın hüquq-mühafizə orqanları Müdafiə Nazirliyində iri maliyyə dələduzluğunun üstünü açıb. Nəticədə Silahlı Qüvvələrin yüksək rütbəli zabitləri tutulub.**



# "Onlar bu işdə tək deyillər"

## Müdafiə Nazirliyindəki korrupsiya faktları ciddi araşdırılmalıdır

Bakı Hərbi Məhkəməsinin qərarı ilə Azərbaycan Müdafiə Nazirliyinin Quru Qoşunlarının maliyyə şöbəsinin rəisi Bayramov Bayram Xəlil oğlu, Sərkərov adına hərbi hissənin maliyyə şöbəsinin rəisi Fərahim Fazil oğlu və zabit Əlizadə Vüsal Ədalət oğlu həbs edilib. B.Bayram 2 milyon 635 min; F.Fərahim 450 min; Ə.Vüsal isə 1 milyon 800 min manat mənimsəməkdə ittiham olunur.

**Hərbi ekspert Ədalət Verdiyev Müdafiə Nazirliyində aşkar edilən dələduzluqla bağlı "Şərq"ə danışarkən bildirib ki, yol verilən mənimsəmə faktı hər birimiz üçün olduqca üzücüdür:** "Qalib orduya ayrılan vəsaitin bir yığın saxtakar tərəfindən mənimsənilməsi onların bu işdə tək olmadığını göstərir. Dövlət Təhlükəsizlik Xidməti bu faktları tam dərinliyinə qədər araşdırıb, rütbəsindən və vəzifəsindən asılı olmayaraq yeyintidə əli olan hər kəsə layiq olduğu cəzanı verməlidir".

*Ə.Verdiyev hər qarış vətən torpağı üçün minlərlə əsgər və zabitimizin qanını, canını əsirgəmədən fəda etdiyini vurğulayıb:* "Belə bir vaxtda 5-10 nəfərin onlara ayrılan vəsaiti mənimsəməsi həmin insanların vicdan və ləyaqətdən necə yoxsul olduğunu göstərir".

Hərbi ekspert inanır ki, dövlətimiz bu kimi halların qarşısının alınması üçün bütün gücündən istifadə edəcək və belə dələduz insanlar həyatlarının qalan hissəsini layiq olduqları yerdə keçirəcəklər.

**Günəş Mərd**



# "Lerikdə işləyirəm, 700 manat maaş alıram"

## Görmə əngəlli tarix müəlliminin cəsarəti, bilgisi, həyat fəlsəfəsi adamı heyran edir





**"Təhsil Nazirliyi mənim kimi insanların imtahanda iştirakını bloklayıb. Görmə əngəllilərə paytaxtda işləmək olmaz"**

**Qeyri-adi müsahibimiz var; Özal Arifoğlu. Tarix müəllimidir. Lerikin Zenoni kənd məktəbində dərs deyir. Görmə əngəllidir. Redaksiya rəhbərliyinin onunla danışmaq, müsahibə almaq təklifini ("Şərq"də tapşırıqlar, adətən tələb yox, təklif şəklində verilir M.R.) çox da ürəklə qarşılamamışdım. Ona görə yox ki, görmə əngəllidir, onunla nə danışacam, necə danışacam, qeyri-müəyyənliyi vardı.**

Fiziki məhdudiyyətli insanlar adilərdən fərqlənir, bir düşünülməmiş ifadə qəlblərinə toxuna bilər, incidə bilər onları. Buna görə, insan çox da ürək eləmir. Amma Özalın fərasətinə bələd olandan sonra razılaşdım. Özal sosial şəbəkədə çox aktivdir. "Tik-Tok"da videolar paylaşır. Şagirdlərlə ünsiyyəti, dərs prosesi, dünya tarixindən səsləndirdiyi faktlar, nümunələrə baxış sayı çoxdur. Feysbuk səhifəsində maraqlı statuslar, fotolar da paylaşır. Əlində "qırmızı diplom" fotosu da diqqətimi çəkdi. "Bu oğlanla danışmaq lazımdır", qərarını verdimsə də, tərəddüd az-çox yenə qalırdı. Özal, o az-çoxu da aradan qaldırdı. Bildim ki, bu gənc heç nədən çəkinmir. Həyatını, içində olduğu durumu, öz real vəziyyətini dərindən anlayıb və olduğu kimi - necə varsa, o cür qəbul edib. Bu məni ürəkləndirdi. Ona zəng etdim.

**- Özal, indi dərsdə deyilsiniz? Mane olmuram?**

- Yox, "okno"du. Yarım saat vaxtım var.

**- Onda başlayaq.**

- Buyurun...

**- Arifoğlu soyadı, atanızın adıyla bağlıdır...**

- Bəli. Soyadım Muradovdur. Amma sonra Arifoğlu soyadını seçdim, bu soyadla tanınıram. Bir az "havalı" səslənir, xoşuma gəlir.

*Oxucunu bezdirməyim deyə, Özalın tərcümeyi-halını konkret bildirim: Özal Muradov - Arifoğlu 1994-cü il sentyabrın 27-də Bakıda anadan olub. Atası Qubadlının Dondarlı kəndindən, anası isə Qərbi Azərbaycandandır. Anası tibb kollecini bitirib, uşaq həkimidir. Atası ticarətlə məşğul olmaq üçün gənc yaşlarında Bakıya gəlib, o vaxtdan da paytaxtda yaşayır. Ailə qurub, övladları olub. Özal 4 yaşında olanda su çiçəyi keçirib. Qardaşı da həmçinin. Sağalıblar, amma tam yox. Gözləri tutulub. Valideynləri bunu təsadüfən bilib.*

- Bir gün anam məni bağçaya aparanda, yolda ağaca dəydim. Anam ani soruşdu ki, ağacı görmürsən?! Mən dedim ki, yox, görmürəm. Anam təəccübləndi və yəqin, şübhələndi ki, məni həkimə apardı. Məlum oldu ki, gözlərim tutulub...

**- Deməli, su çiçəyi heç də sanılan kimi yüngül uşaq xəstəliyi deyil, kor edə bilir insanı?**

- Bəli. Bu, milyonda bir görülən haldır. Rusiyanın ikinci imperatoru II Pyotr da uşaq vaxtı su çiçəyi keçirib və gözləri tutulub.

**- Sizin tarix bilgilərinizin əhatəli olduğunu bilirəm. Paylaşdığınız videolara baxmışam... Youtub-da paylaşırsınız...**

*(Səhvimi düzəltdi)*

- Əsasən "Tik-Tok"da...

**- Tarix sevginizə qayıdacam. Mən... soruşmaq istəyirəm...** ***(doğrusu, fikrimi ifadə etməkdə çətinlik çəkdim. Bilmədim, nə deyim, "qəribəsiniz", "qeyri-adisiniz", "necə ürəkli danışırsınız"... çaşıb-qaldım)***

*Özal özü davam etdi:*

- Həyat insana bir dəfə verilir. İnsan həyata məğlub olmamalıdır. Nə olursa-olsun, nə baş verirsə-versin. Hətta uduzmusansa hesabı xeyrinə dəyişməyi bacarmalısan.

**- Mən əvəzdən da danışdınız, vallah!.. Siz hesabda irəlidəsiniz, artıq. Görmə əngəlli ola-ola müəllimlik edirsiniz, dərs deyirsiniz. Virtual dərslər keçirsiniz. Vallah, halal olsun, sizə... Ürəkləndim. Gözləriniz heç görmür? Yəni müəyyən faiz də?**

- Yox.

**- Müalicəsi yoxdur?**

- Var, müalicəsi *(tez də əlavə etdi).* Mən telekanallara çıxıb kömək istəməyi qəbul etmirəm. Bunu heç vaxt qəbul etməmişəm, efirə çıx, orda danış, kimlərsə sənin üçün pul toplasın... Heç vaxt bununla razılaşmamışam, razılaşmayacam da!..

**- Özal, bizim elə bir məqsədimiz yoxdu. Birdən elə düşünərsən, mediadı, nəsə məqsədimiz var, zəng etməkdə, sorğu-sualda...**

- Yox, sizi nəzərdə tutmuram. Bilirəm, ona görə zəng etməmisiniz. Mən Akif müəllimi tanıyıram *(baş redaktorumuz Akif Aşırlını nəzərdə tutur),* feysbukda dostluğumda var.

**- Lap yaxşı. Akif müəllim də tarixçidir. Cümhuriyyət dövrünü araşdırıb...**

- Bilirəm, tanışam.

*(İndi lap ürəkləndim və Özalı redaksiyaya dəvət etdim)*

**- "Şərq"ə gəlin. Bizim redaksiyamız muzeydi. Akif müəllim çox zəngin eksponatlar toplayıb. Xoşunuza gələcək.**

- Gələrəm bir gün. Maraqlı olar...

**- Ümumiyyətlə, gözlərinizin müalicəsi mümkündü?**

- Müalicəsi var, bəli. Xarici ölkəyə getmək lazımdı. Bunun üçün də vəsait gərəkdi... Mən heç kimdən kömək istəmərəm. Həm də özümü artıq bu cür qəbul etmişəm. Nəyə nail olmuşamsa, dişimlə, dırnağımla qazanmışam. Həyatımdan razıyam.

**- Özal, təhsil almağınızla bağlı danışın.**

- Mən Bakıda 5 saylı xüsusi məktəbdə təhsil almışam. Bu məktəb sırf gözdən əlillər üçündür. Yatılı məktəb idi. Amma mən yaxınlıqda yaşadığım üçün orada qalmırdım. Biz Brayn əlifbası ilə oxuyurduq.

**"Albaniyanın maliyyə naziri görmə əngəllidir. Bizə niyə ayrı-seçkilik edirlər, anlamıram"**



**- Yaxşı oxuyurdunuz?**

- Demək olar. Bir "4"üm olub, kimyadan. Tərifnamə ilə bitirmişəm orta məktəbi.

**- Tarixə məktəb vaxtında marağınız vardı?**

- Əslində, yox. Məktəbdə ən çox sevdiyim fənn fizika idi. 9-cu sinfə qədər fizika aşiqi idim. Bakının rayonları arasında keçirilən Olimpiadada Nərimanov rayonu üzrə 3-cü yeri tutmuşdum. Sonra müəllimimiz dəyişdi, yeni gələn müəllim əvvəlki müəllimimiz kimi olmadı, dərs keçmirdi. Getgedə mən də zəiflədim.

**- Üzr istəyirəm, fizikanı necə öyrənirdiniz? O fənnin də xüsusi dərs vəsaiti vardı?**

- Yox. Mən internet klubda "Fizika" kitabının səhifələrini kserokopiya elətdirirdim, əlavə materialların da üzünü çıxartdırırdım, evdə mənə oxuyurdular, yadda saxlayırdım, elə öyrənirdim. Eynşteyni, Nyuton fizikasını belə öyrənmişəm. Məktəbdə bunları bizə keçmirdilər. Qısaca deyirdilər ki, Eynşteyn var, Nyuton var... Özüm materiallar əldə edirdim, araşdırırdım.

**- Bəs tarixə meyl necə yarandı?**

- Açığını deyim? Verəcəksiniz qəzetinizdə?

*(Təəccüb etdim. Niyə verməməliyik ki?)*

- Mən tarix fənnini Müsavat Partiyasının başqanı İsa Qəmbərə görə sevmişəm. Fikirləşdim, bəlkə onun adını yazmazsınız...

**- Niyə yazmayaq ki, Özal?! Burda təhlükəli, qorxulu bir şey yoxdu. Mən də düşünürəm, hansısa qədim dövrlərin tarixi şəxsiyyətlərinin adını çəkəcəksən.**

- Mən İsa Qəmbəri özümə kumir seçmişdim. Sonralar Əhməd bəy Ağaoğlunun "Sərbəst insanlar ölkəsi" əsərini oxudum. Əhməd bəy Ağaoğlu da kumirim oldu.

**- Və ali məktəbə daxil oldunuz.**

- Bəli. Azərbaycan Dövlət Pedaqoji Universitetinin tarix fakültəsinə daxil oldum. 2013-cü ildə.

**- Dərslərinizi orda necə oxuyurdunuz, çətin olurdu?**

- Yox, telefonlar vardı artıq, dərsləri yükləyirdim telefonun yaddaşına, dərsliklərin PDF variantını da yükləyirdim, səsli proqramların köməyi ilə öyrənirdim. Bakalavr pilləsini "qırmızı diplomla" bitirdim. Magistraturaya daxil oldum. Sumqayıt Dövlət Universitetinin Avropa və Amerika ölkələrinin yeni və ən yeni dövr tarixi üzrə. Müəllimlərin işə qəbulu üzrə imtahan verdim. 60 sualdan 51-nə cavab vermişdim. Bir az tələsik oldu, yaxşı hazırlaşa bilməmişdim. Əvvəldən hazırlaşsaydım, bütün suallara cavab verərdim.

**- İmtahanda necə iştirak etdiniz?**

- Çox sadə. İmtahan nəzarətçisi sualları oxuyurdu, mənim cavablarımı kompüterə daxil edirdi.

**- Lerikə necə gedib çıxmısınız bəs?**

- İmtahan nəticələrinə uyğun vakansiyalar təklif edilir. Lerikdə vakansiya vardı. Yaxın qonşumuz var, o da məsləhət gördü ki, Lerikə gedim. 3 ildir artıq burda çalışıram.

**- Şagirdlər yəqin sizi çox istəyir?**

- Nə bilim... Yəqin...

**- Fotolardan, videolardan görünür.**

- Mən də onları çox istəyirəm. Dərsdən əlavə repetitorluqla da məşğulam.

**- Halal olsun sizə. Siz ki, bu qədər mübariz, qətiyyətlisiniz, şagirdlərə ən gözəl örnəksiniz. Şagirdlərə dərsi necə keçirsiniz?**

- Yenə də PDF variantı ilə. Mən şagirdlərə motivasiya verirəm. Onlara tariximizi, dilimizi sevdirməyə çalışıram. Azərbaycan Xalq Cümhuriyyəti qurulduqda Səməd bəy Mehmandarov parlamentə dəvət edilib, ordudakı vəziyyətlə bağlı məruzə üçün. Səməd bəy, Azərbaycan dilində danışa bilməyib, gözləri dolub, kürsüdən enərək, salonu tərk edib. Bunun özü bir nümunədir ki, böyük şəxsiyyət necə utanc hissi keçirib.

**- Cümhuriyyət dövrünə xüsusi rəğbətiniz var...**

- Elədir. İlber Ortaylının, Nəsiman Yaqublunun kitablarını oxuyuram. İlber Ortaylı Bakıya gələndə onunla görüşmüşəm.

**- Lerikdə harda qalırsınız?**

- Rayonda kirayədə qalıram. Şəkidən gəlmiş coğrafiya müəllimi ilə birlikdə. Burda, Lerikdə tanış olmuşuq, dostlaşmışıq.

**- Əmək haqqınız nə qədərdir, sirr deyilsə?**

- 700 manata qədər əmək haqqı alıram.

**- Mən yaşayışınız, sosial durumunuz barədə müəyyən təsəvvür olsun deyə soruşdum.**

- Müəllimə nə qədər əmək haqqı versələr də azdır. Müəllim haqqı ödənməz. Sırf müəllim maaşı ilə dolanmaq, əlbəttə, çətindir.

**- Rayon yerində, paytaxta nisbətən yenə bir az yüngül olar.**

- Orası düzdür. Amma mən 2-3 həftədən bir Bakıya gəlirəm. Çətin olur.

**- Niyə Bakıya gəlirsiniz? Valideynlərinizi görmək üçün?**

- Həm valideynlərimi görməyə, həm də darıxıram şəhər üçün.

**- Dərsiniz başlayar, son sualı verim. Gələcək planlarınız nədir, hansı məqsədləriniz var?**

- Mən yenə MİQ imtahanlarında iştirak etmək istəyirəm. Amma qəribədir ki, Təhsil Nazirliyi mənim kimi insanların imtahanda iştirakını bloklayıb. Görmə əngəllilərə paytaxtda işləmək olmaz. Müraciət etmişik, deyirlər, insan resursları şöbəsinə müraciət edin, ordan da cavab verilmir. Bu, bürokratik əngəldi. Hamıya bərabər imkanlar yaradılmalıdır. Görmə əngəlli olmaq mənim biliyimə təsir etmir. Albaniyanın maliyyə naziri görmə əngəllidir. Bizə niyə ayrı-seçkilik edirlər, anlamıram. Doktorantura təhsili almaq fikrindəyəm. Amma ən böyük hədəfim Almaniyada təhsil almaqdır. Almaniya alınmasa, Baltikyanı ölkələr, ən sonda Rusiya variantı üzərində düşünürəm.

**- İnşəllah, hədəflərinizə çatacaqsınız. Vaxtınız varsa, bir məsələni də soruşum. Son zamanlar orta məktəblərdə şagirdlərin nalayiq davranışlarını, müəllim-şagird qarşıdurmalarını əks etdirən videolar yayılır. Sizcə, problem kimdə, nədədir?**

- Burda ən sonuncu günahkar uşaqlardır. Məktəblərdə həmişə belə hadisələr baş verib. Mən təhsil aldığım zamanlarda da belə hadisələr olurdu. Uşaqları yun çubuğu ilə döyən müəllimlər də olub. Əsas problem müəllim-valideyn əlaqəsinin qurulmamasıdır. Uşaq 6 yaşa qədər tərbiyəni evdə valideynlərindən alır. Əgər uşaq evdə valideynlərinin dilindən kobud, ağır ifadələr eşidirsə, bunu təkrarlayacaq. Valideyn səhv olaraq düşünür ki, vəzifəsi uşağı yedizdirmək, geyindirmək, böyütməkdir. Valideynin birinci vəzifəsi övladına tərbiyə verməkdir. İndi də sosial media əlçatandı, smartfonlar əllərdə. Kim nə istəyir, çəkir, paylaşır.

**- İşğaldan azad olunmuş ərazilərə getməmisiniz?**

- Şuşaya getmək istəyirəm. Bəlkə Novruz bayramında getdim.

**- Bəs Qubadlıya? Orda dədə-baba yurdunuz salamat qalıb?**

- Bəli, ev salamatdı. Qismət olar ora da gedərəm. Amma sizə bir etiraf edim, mən Qubadlıdan daha çox Şuşanın azad olunmasına sevinmişdim.

*(Özalı çağırırdılar. Dərs başlayırdı. 1-2 saniyəsini də "oğurlamağa" çalışdım)*

**- Özal, evlənmək barədə düşünmürsən?**

*(Qısa cavab verdi)*

- Həyatımın qayəsi deyil bu.

*Uğurlu dərslər, qeyri-adi, cəsur müəllim! Biz sənin şagirdlərinin də sənin kimi mübariz olacağına əminik!*

**Söhbətləşdi: Mələhət Rzayeva**

# Avropada ciddi fikir ayrılıqları yaşanır

## Qərb dövlətləri Ukraynaya istənilən dəstəyi göstərmir



**Son günlər Rusiya qoşunlarının Ukrayna sərhədlərindən geri çəkilməsi barədə xəbərlər yayılır. Rusiya-Ukrayna sərhədindəki vəziyyətdən danışan NATO-nun Baş katibi Yens Stoltenberq rəsmi Moskvanın gərginliyin azaldılması istiqamətində hər hansı addım atdığını müşahidə etmədiklərini deyib.**

O bildirib ki, əksinə, Rusiya Ukrayna sərhədindəki əsgərlərinin sayını artırır. Ukrayna Müdafiə naziri Aleksey Reznikov deyib ki, Kiyev Donbass və Krım da daxil olmaqla, heç bir aqressiv hərəkət planlaşdırmır: "Hər gün müdafiəmizi gücləndiririk, lakin nə şərqdə, nə Krımda, nə də başqa istiqamətlərdə hər hansı təcavüzkar hərəkətlər planlaşdırırıq. Ukrayna tərəfdən heç bir təxribat olmayacaq, amma bizə təxribat etmək cəhdlərinə sərt cavab veriləcək". Rusiya Prezidenti Vladimir Putinin sözçüsü Dmitri Peskov isə deyib ki, NATO Ukrayna ətrafındakı vəziyyəti düzgün qiymətləndirə bilmir: "Hərbi alyansın nümayəndələri vəziyyəti adekvat qiymətləndirə bilmirlər". Estoniya Xarici Kəşfiyyat Xidmətinin rəsmi hesabatında isə qeyd olunub ki, Rusiya Ukrayna ərazisinə fevralın sonlarında hücum edəcək: "Qiymətləndirməmizə görə, Rusiya ordusu fevralın ikinci yarısından etibarən Ukraynaya qarşı genişmiqyaslı əməliyyata başlaya bilər. Hərbi hazırlıq başa çatdıqdan sonra əməliyyata başlamaq üçün yalnız siyasi qərar tələb olunacaq". Kəşfiyyat hücumun fevralın 16-da baş tutmamasına səbəb kimi isə Rusiya ordusunun hazır olmamasını göstərib. Qeyd olunub ki, Rusiyanın öz ərazisindəki hərəkətləri nə NATO, nə də Baltikyanı ölkələri təhdid edir. Lakin Qərb ölkələri istənilən halda Moskvanın qarşısını almalıdır.

**"Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları" Mərkəzi sədri Samir Hümbətov deyib ki, Rusiya Müdafiə Nazirliyinə istinadən yayılan məlumatlara əsasən, rus silahlı qüvvələrinin bir hissəsi təlimlərin başa çatması ilə əlaqədar olaraq qoşunların geri çəkilməsini həyata keçirir. Ekspert bildirib ki, uzun müddətdir dünya mediasında Rusiyanın Ukraynaya hücum edəcəyi ilə bağlı məlumatlar yayılmaqdadır. Amma Rusiya tərəfi bu məlumatı qəti şəkildə təkzib edir:** "Görünən odur ki, Rusiya Ukraynaya hücum etmək niyyətində deyil, yaxud bu addımın ona böyük ziyan gətirəcəyini düşünür. Rusiya yaxşı başa düşür ki, indiki halda Ukraynaya müdaxilə edərsə, bu, dünya birliyi, xüsusilə də Qərb ölkələri tərəfindən işğal faktı kimi dəyərləndiriləcək. Qərbin ona qarşı sanksiyalar paketinin işə düşməsinə şərait yaradacaq. Ona görə də Gürcüstanda olduğu kimi digər variantı seçir, amma fərqli formada. İndi Rusiya Abxaziya və Cənubi Osetiyanın "müstəqilliyini" tanıdığı kimi qondarma Donetsk və Luqansk "respublikaları"nın da "müstəqilliyini" tanımağı hədəfləyir. Senari bundan ibarətdir ki, Rusiya sözügedən "respublikalar"ın "müstəqilliklərini" tanımağa çalışacaq. Daha sonra həmin "respublikalar"la təhlükəsizlik və əməkdaşlıqla bağlı müqavilə imzalayacaq. Bununla da Ukraynanın həmin əraziləri özünə birləşdirmək cəhdləri demək olar ki, tamamilə azalmış olacaq".

**Siyasi şərhçiyə görə, Qərb dövlətləri də Ukraynaya istənilən dəstəyi göstərmir:** "Ukrayna-Rusiya məsələsində Qərb dövlətləri arasında ciddi fikir ayrılıqları yaşanır. Narahatedici digər məsələ Ukraynanın NATO-ya daxil olması məsələsində yetərli dəstəyi ala bilməməsidir. Düzdür ki, Rusiya Qərb dövlətlərindən təhlükəsizliyi ilə bağlı yazılı zəmanəti ala bilmədi, amma Qərb dövlətləri qarşısında geri də çəkilmədi. Digər tərəfdən Türkiyənin vasitəçiliyi ilə Rusiya və Ukrayna arasında dialoqun qurulması cəhdi də məsələnin hərbi müstəvidən çıxıb siyasi müstəviyə qayıtmasına imkan yaratdı. İstisna etmək olmaz ki, Azərbaycan Prezidenti İlham Əliyevin Ukraynaya sonuncu səfəri zamanı tərəflər arasında Rusiya-Ukrayna böhranı müzakirə edilməsin. Türkiyə kimi Azərbaycanın da əsas məqsədi tərəflər arasında gərginliyi azaltmaq və məsələləri dinc yolla həll etməkdir. Gözləniləndir ki, tərəflər arasında bundan sonrakı mərhələdə yeni münasibətlər sistemi qurulacaq".

**İsmayıl Qocayev**



# Qatilə mərhəmət olmayacaq

## Azərbaycan ən sərt addım ata bilər

**Baş Prokurorluq Qarabağ separatçılarının başçısı Araik Arutyunyanın məhkəmə qarşısına çıxarıla biləcəyini açıqlayıb. Arutyunyan haqqında cinayət işi açılıb və həbsi üçün İnterpola məlumat verilib. Amma həbsini gerçəkləşdirmək mümkün olmayıb. O, Azərbaycanda dinc əhaliyə qarşı terror törətməyə əmr verən şəxs olaraq müharibə cinayətləri törədib.**

*"Arutyunyanı Xankəndidən də "oğurlayıb" Bakıya gətirməyə imkanımız çatır"*

Azərbaycan qanunvericiliyinə görə, ölkə ərazisində törədilmiş hər hansı cinayətə görə, prokurorluq cinayət işi qaldıra və onun icrasını həyata keçirə bilər. Arutyunyanın İnterpol xəttilə və Bakı-Moskva arasında bağlanan qarşılıqlı hüquqi yardım haqqında razılaşmaya əsasən, Azərbaycana təhvil verilməsinin mümkün olduğu deyilir. Arutyunyan ancaq Moskvaya gedib-gəlir. Əgər Rusiya ilə razılıq mümkün olmasa, Bakı Moskvanın terroristi dəstəklədiyi məsələsini ortaya qoya bilər. Separatçının interpol xəttilə həbs edilib təhvil verilməsini Ermənistan da həyata keçirə bilər. Ancaq indiki halda Azərbaycanla Ermənistan arasında qarşılıqlı hüquqi yardım haqqında saziş yoxdur. Baş nazir Nikol Paşinyanın bu addımı atacağı ehtimalı isə çox zəifdir. Çünki Azərbaycan Baş Prokurorluğunun açıqlaması İrəvanda və Xankəndidə ciddi narahatlıq yaradıb.

**Siyasi şərhçi Azər Rəşidoğlu "Şərq"ə açıqlamasında vurğulayıb ki, separatçı haqqında qərar Araik Arutyunyanın xarici ölkələrə səfərinə əngəl yarada bilər. Ekspert vurğulayıb ki, bəlkə də həbsi indiki halda real deyil, ancaq Arutyunyan bu qərardan sonra qondarma rejimi təmsil edə bilməyəcək:** "Əgər Azərbaycan diplomatik yollarla məsələnin həllinə çalışsa, separatçının həbsi də reallaşa bilər. İstənilən halda Qarabağda cinayətlər törətmiş şəxslərin beynəlxalq axtarışa verilməsi təqdirəlayiq addımdır. Düşünürəm ki, rəsmi Bakı hazırda özü nəzarət etmədiyi bölgələrdə gizlənmiş separatçılara müraciət etməli və onlardan könüllü şəkildə istintaqa təslim olmalarını tələb etməlidir. Onlardan bir qisminə daha yüngül cəzalar da verilə bilər. Lakin Arutyunyan kimi qatillərə heç bir əfv şamil oluna bilməz. Azərbaycanın güclü ordusu və kəşfiyyatı var. Onu Xankəndidən də "oğurlayıb" Bakıya gətirməyə imkanımız çatır. Vaxtilə Türkiyə dövləti baş terrorçu A.Öcalanı xarici ölkədən "qaçırdıb" gətirmişdi. Eyni addımı biz də ata bilərik".

**İsmayıl**



# Rus sülhməramlıları yaxşı düşünməlidir

## "Biz vədimizə əməl edirik, amma hər dözümün bir sonu var"

**Qarabağda sülhməramlıların müvəqqəti məsuliyyət zonasındakı erməni separatçıları əndazəni aşıb. "Oxu.az"ın xəbərinə görə, separatçılar ərazidəki mülki əhaliyə atəş hazırlığı dərslərinin keçiriləcəyini bildiriblər. Separatçılar sözügedən təxribat "tamaşasını" oynamaqla sülhün yaradılmasının ziddinə gedirlər.**

Bir müddət əvvəl Azərbaycanın mövqeləri istiqamətində qumbara atan erməninin xatırlasaq, o zaman bu atəş hazırlığı "təşəbbüs"ünün də arxasında dayanan planları sezmək olur. Ancaq ermənilərin istənilən təxribatının qətiyyətlə alınacağına şübhə yoxdur. Azərbaycan Ordusu belə təxribatları neytrallaşdıra bilmək iqtidarındadır. Rus sülhməramlıları erməni terroruna dəstəkləməməli, qane etməyən hərəkətlərin qarşısını almaq məsuliyyətindədirlər.

**Erməni separatçılarının təxribatları ilə bağlı "Şərq"ə danışan siyasi elmlər doktoru, politoloq Cümşüd Nuriyev deyib ki, Qarabağdakı sülhməramlılar qeyri-qanuni fəaliyyətlə məşğuldurlar:** "Onlar Qarabağda sülhün deyil, qarşıdurma yaranmasının tərəfdarıdırlar. Üçtərəfli bəyanatda göstərildiyi kimi erməni separatçılarının həmin ərazilərdən çıxarılması həyata keçirilmir. Tikinlər, qururlar, evlənirlər, boşanırlar, amma sülh yaratmırlar. İndi də əhaliyə atəş açmaq dərslərinə başlayırlarsa, demək bu, kuliminasiya nöqtəsidir. Belə hazırlıqlar gələcəkdə müharibə olacağı təqdirdə keçirilir. Hazırkı Ukraynanın vəziyyətinə uyğundur. Rusiya sülhməramlıları Qarabağda hansı erməniyə atəş açmağı öyrədirlər? Qeyri-rəsmi məlumata görə, 10 mindən çox erməni separatçının əksəriyyəti xaricdən gələnlərdir. Müxtəlif ölkələrdə terror aktlarında iştirak ediblər, indi də Qarabağdadırlar. Siyahıları, qeydiyyatı məlum deyil. Azərbaycan tərəfi də üzərinə götürdüyü öhdəliyə görə hərəkət edir. Prezident, Azərbaycan Xarici İşlər Nazirliyi, Müdafiə Nazirliyinin yüksək vəzifəli şəxsləri bu barədə fikir bildiriblər. Bəzi məqamlar media üçün açıq danışılmır. Amma bütün hallarda müəyyən məsələləri açıb-ağartmamaq lazımdır".

**Politoloqun fikrincə, sülhməramlılar fərqli istiqamətdə hərəkət edirlər:** "Onların Qarabağda qalması üçün Azərbaycan tərəfi razılıq verməlidir. Artıq il yarımdır sülhməramlı funksiyasını yerinə yetirirlər. Müddətin qısalması, uzanması məsələsi də Azərbaycanın əlindədir. Hələlik vədlərimizə əməl edirik, lakin hər şeyin sonu var. Rusiya sülhməramlılarının Qarabağda həyata keçirmək istədikləri anti-Azərbaycan siyasətinin də sonu gələcək. Daimi olduqlarını fikirləşməsinlər. Azərbaycanın torpaqlarını qaytaracağına da inanmırdılar. Rus sülhməramlıları başqa bir şey haqqında fikirləşsinlər. Ən azı 5 il qala biləcəklərmi, yoxsa yox, onu düşünsünlər".

**Aygün Tahir**

# Qaydanı pozan qadın sürücülərin sayı artıb

## Ötən il 84 min qadın sürücü barəsində elektron qərar çıxarılıb

**2021-ci il ərzində yolda müəyyən edilmiş sürət həddini aşmağa görə xüsusi texniki vasitələrin köməyi ilə real vaxt rejimində 84381 qadın sürücü barəsində elektron qərar çıxarılıb. Bu barədə Baş Dövlət Yol Polisi İdarəsinin məlumatında bildirilir.**



*"Hündürdaban ayaqqabı geyinib sükan arxasına keçmək həqiqətən böyük problem yaradır. Çünki hündürdaban ayaqqabı ilə sürətə nəzarət etmək, lazım olan anda sürət həddini dəyişmək xeyli çətindir. Mobil telefonla çox danışırlar, bəli, bu da düzdür"*

Bildirilib ki, bundan başqa, təhlükəsizlik kəmərini bağlamadan nəqliyyat vasitəsini idarə etməyə görə 5494, yolayrıcını keçmə qaydalarının pozulmasına görə 1363, işıqforun və ya nizamlayıcının qadağanedici işarəsi verilərkən hərəkətin davam etdirilməsinə görə 1257, ara məsafəsi qaydalarının pozulmasına görə 528, nəqliyyat vasitəsini tam olaraq əks istiqamətli nəqliyyat axınının hərəkət zolağına keçirərək nəqliyyat axınına əks istiqamətdə hərəkət etməyə görə 383, nəqliyyat vasitəsinin hərəkəti zamanı telefonu əldə saxlamaqla ondan istifadə etməyə görə 192, nəqliyyat vasitəsinin sərxoş vəziyyətdə idarə edilməsinə görə 40 nəfər qadın sürücü barəsində inzibati tənbeh tədbirləri tətbiq edilib. DİN BDYPİ qadın sürücüləri sükan arxasında diqqətli olmağa çağırıb. Qeyd olunur ki, yol hərəkəti günü-gündən artan iştirakçıları ilə mürəkkəb ictimai münasibətlər sisteminə malik bir prosesdir və bu prosesdə qadın sürücülərin sayı ilbəil artmaqdadır. Belə ki, 2020-ci illə müqayisədə sürücülük vəsiqəsi alan qadınların sayı 2021-ci ildə 67 faiz artıb. Onu da qeyd etməliyik ki, nəzəri imtahanlar zamanı yol hərəkəti qaydaları ilə bağlı suallara daha təz və düzgün cavab verən, həmçinin təcrübi imtahanlarda yüksək nəticələr göstərən qadın sürücülər az deyil. Təəssüf ki, aparılan təhlillər qadın sürücülər arasında qayda pozuntusuna meyilli şəxslərin az olmadığını göstərir.

Elə özümüz də yollarda hərəkətdə olarkən bəzən sükan arxasında olduqlarını unudub güzgüyə baxa-baxa kosmetik vasitələrdən istifadə edən, saçını düzəldən, mobil telefona başı qarışan, yolun hərəkət hissəsinin sol zolağında aşağı sürətlə hərəkət edərək süni sıxlıq yaradan və başqa qayda pozuntularına yol verən qadın sürücülərin şahidi oluruq. Statistik rəqəmlər də deyilənləri təsdiq edir. Təkcə ötən il ərzində də qadın sürücülər tərəfindən törədilmiş ümumilikdə 28 yol-nəqliyyat hadisəsi qeydə alınıb ki, həmin qəzalarda 17 nəfər həyatını itirib, 18 nəfər isə yaralanıb. "Xanımlarımıza müraciət edərək nəqliyyat vasitələrindən istifadə edilməsinin onların özləri və ətrafdakılar üçün yüksək təhlükəli fəaliyyət həsab olunduğunu nəzərə almağı, baş verə biləcək riskləri əvvəlcədən düzgün qiymətləndirməyi, avtomobilin texniki sazlığını daim nəzarətdə saxlamağı və ona əylencə vasitəsi kimi baxmamağı, xüsusən hündürdaban ayaqqabı həvəskarı olan qadınlara nəqliyyat vasitəsini rahat idarə etmək üçün münasib ayaqqabı seçməyi və ən əsası sürücü kimi yola çıxdıqda yol hərəkəti qaydalarını pozmamağı tövsiyə edirik".

**Nəqliyyat məsələləri üzrə ekspert Əziz Talıbov "Şərq"ə açıqlamasında qeyd etdi ki, sürücülərin qadın-kişi cinsinə ayrılmasının əleyhinədir:**

- Sürücü, sürücüdür. Qadın, kişi fərq etmir. Qadın sürücülər də qəza törədir, kişi sürücülər də. Nə qədər ki, yol, nəqliyyat, sürücü var, qəzalar da olacaq. Amma Baş Dövlət Yol Polisi İdarəsi niyə məhz qadın sürücülərə müraciət edib, bu, maraqlıdır. Ola bilsin, statistik rəqəmlərdə qadın sürücülərin iştirakı ilə törədilən yol-nəqliyyat qəzalarının faizi kişi sürücülərin iştirakı ilə törədilənlərə nisbətən bir qədər çoxdur. Ona görə də BDYPİ narahatlığını ifadə edir. Statistika müqayisə edilsəydi, yaxşı olardı. Qadın sürücülərin iştirakı ilə törədilən qəzaların sayının artması da sürücülərin sayının artması ilə mütənasibdir. Bir halda ki, sürücülük vəsiqəsi alan qadınların sayı artıb, qəzaların da sayı buna adekvat olaraq artacaq. Əvvəl 10 qadın sürücü vardısa, indi 10 mindirsə, qəzaların sayının artması da qeyri-adi hal deyil. Hesab edirəm ki, qadın sürücülər, əksinə, avtomobili daha rahat və ehtiyatlı idarə edirlər. Bu, onların təbiətindən irəli gəlir. Amma hündürdaban ayaqqabı geyinib sükan arxasına keçmək həqiqətən böyük problem yaradır. Çünki hündürdaban ayaqqabı ilə sürətə nəzarət etmək, lazım olan anda sürət həddini dəyişmək xeyli çətindir. Mobil telefonla çox danışırlar, bəli, bu da düzdür. Əlavə edim ki, qadın sürücülər övladlarını məktəbə aparır və məktəbdən gətirir, bu zaman da parklanma, dayanma-durma qaydalarını pozurlar. Bu baxımdan qadın sürücülərə müraciət etmək olar ki, diqqətli hərəkət etsinlər və qaydaları pozmasınlar.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi;**



# Azərbaycan etibarlı tərəfdaş olduğunu daim sübut edib

## NATO ilə Azərbaycan arasında əməkdaşlıq daha da güclənəcək

**aFevralın 15-də NATO-nun Baş katibi Yens Stoltenberq Prezident İlham Əliyevə zəng edib. Söhbət zamanı NATO-nun Baş katibi ötən ilin dekabrında quruma səfərinə və Şimali Atlantika Şurasında çıxışına görə Prezidentə təşəkkürünü ifadə edib. Telefon danışığı əsnasında Azərbaycan-NATO əlaqələrinin inkişafından məmnunluq ifadə olunub, Cənubi Qafqaz regionunda postmünaqişə vəziyyəti, Ukrayna ətrafında cərəyan edən proseslərə və dünya enerji bazarındakı mövcud duruma dair fikir mübadiləsi aparılıb.**

Baş katib Avropanın etibarlı qaz təchizatçı olmasına və qaz ixracını artırmasına görə Azərbaycana təşəkkürünü ifadə edib. Dövlət başçısı Azərbaycanın enerji məhsulu növlərinin önəmli ixracatçısı kimi etibarlı tərəfdaş olaraq qalmaqda davam edəcəyini diqqətə çatdırıb. Hərbi alyans qarşıdakı müddətdə Azərbaycanla yüksək səviyyədə siyasi dialoqun və geniş praktiki əməkdaşlığın davamına ümid edir. Azərbaycanın 44 günlük müharibədə Ermənistan üzərində qələbə qazanması regionun siyasi xəritəsini yenidən şəkilləndirməyi aktuallaşdırıb. Bakı postmünaqişə dövründə proseslərdə əsas yönləndirici amilə çevrilir. Ankaradan gələn güclü siyasi dəstək, hər addımda Azərbaycanın maraqlarının müdafiəsi Bakıya əlavə imkanlar yaradır. Azərbaycan indi NATO-ya münasibətdəki siyasətini şaxələndirməyi hədəfləyir. Hərbi Alyans Azərbaycan üçün vacib tərəfdaşdır. Azərbaycanın NATO ilə əməkdaşlığı 1994-cü ildə Brüsseldə "Sülh naminə Tərəfdaşlıq" çərçivə sənədinin imzalanması ilə başlayıb. Prezident İlham Əliyev qurumun mənzil qərargahına 6 dəfə, baş katiblər isə Azərbaycana 3 dəfə səfər ediblər. Dövlət başçısı təşkilatın 7 Zirvə görüşündə iştirak edib. NATO daim Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə dəstək verib. Bu dəstək alyansın zirvə görüşlərində öz əksini tapıb. Zirvə görüşlərinin yekun sənədlərində Azərbaycanın müstəqilliyinə, suverenliyinə və ərazi bütövlüyünə dəstək ifadə olunub. Bu sənədlərdə Cənubi Qafqazdakı münaqişələrin, o cümlədən keçmiş Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həllinin vacibliyi vurğulanırdı. Vətən müharibəsi dövründə də NATO Azərbaycan və Ermənistanı atəşkəsə və danışıqlara çağırırdı. Azərbaycanın Vətən müharibəsində əldə etdiyi tarixi zəfəri nəticəsində yaranmış yeni reallıq təşkilat tərəfindən də qəbul edildi. Zirvə görüşünün yekun mətnindən keçmiş Ermənistan-Azərbaycan münaqişəsinə istinad edən bənd çıxarıldı. Azərbaycan və NATO arasında praktiki əməkdaşlığın əsas istiqamətlərini müdafiə və təhlükəsizlik sektorunda islahatlar, beynəlxalq əməliyyatlarda iştirak, fövqəladə hallara hazırlıq, təhlükəsizlik ilə əlaqəli olan elmi və ekoloji məsələlər və ictimai diplomatiya təşkil edir. Azərbaycan öz Silahlı Qüvvələrinin hərbi alyansın standartlarına uyğunlaşdırılması istiqamətində ciddi addımlar atıb. Şimali Atlantika Alyansının üzvü olan Türkiyə modelli ordu quruculuğunu da NATO istiqamətinə yön alan müsbət siyasi gediş kimi qiymətləndirmək olar. 2002-ci ildən etibarən 30-dan çox Azərbaycan zabiti NATO-nun mənzil qərargahında və qurumlarında xidmət aparıb. Azərbaycan və hərbi alyans arasında mina və partlamamış silah-sursatların təmizlənməsinə dair "Saloğlu" və "Ceyrançöl" layihələri kimi praktiki layihələr uğurla həyata keçirilib. 2002-ci ildən Azərbaycan NATO-nun Əfqanıstandakı missiyalarında fəal iştirak edib. 2015-ci ildən 2021-ci ilin avqustuna qədər Azərbaycan Əfqanıstanda "Qətiyyətli Dəstək" missiyasında iştirak edib. 120 Azərbaycan hərbçisi Kabilin beynəlxalq hava limanında xidmət edirdi. Əfqanıstanda baş vermiş son hadisələr zamanı Azərbaycan hərbçiləri hava limanında təhlükəsizliyin təmin olunmasına və əhalinin təhlükəsiz təxliyəsinin təşkil edilməsinə böyük töhfə verib. 2017-2020-ci illərdə Azərbaycan NATO-Rusiya və ABŞ-Rusiya arasında yüksək vəzifəli hərbçilərin 7 görüşünə ev sahibliyi edib. Görünən odur ki, Azərbaycan-NATO əməkdaşlığı bundan sonra daha da dərinləşəcək. Münasibətlərin perspektivi tərəflər üçün faydaları artıracaq.

**Millət vəkili Cavid Osmanov "Şərq"ə deyib ki, NATO baş katibinin Azərbaycan Prezidentinə zəngi ölkəmizin artan nüfuzunu, beynəlxalq münasibətlər sistemində tutduğu önəmli yeri tutur. Deputat vurğulayıb ki, Azərbaycan hərbi alyansın etibarlı tərəfdaşı olduğunu bir çox addımları ilə sübut edib:** "Prezident İlham Əliyev hər zaman deyib ki, imzamız sözümüz qədər dəyərlidir. Rəsmi Bakı hərbi alyansla bir çox sahədə sıx əməkdaşlıq edir. Sülhməramlı qüvvələrimiz Əfqanıstanda, İraqda və digər bölgələrdə yüksək səviyyədə fəaliyyət göstəriblər. Azərbaycan Avropanın enerji təhlükəsizliyinin şaxələndirilməsində də mühüm rol oynayır. Ölkəmiz dünyada etibarlı tərəfdaş kimi özünü sübut edib. NATO baş katibi də bunu yüksək qiymətləndirdi. Azərbaycan Qoşulmama Hərəkatının üzvü olmasına baxmayaraq, NATO-nun müvafiq qurumları və proqramları çərçivəsində əməkdaşlığını davam etdirir. Azərbaycanın xarici siyasətində əsas istiqamətlərdən biri Alyansa inteqrasiyadır və bu proses uğurla gedir. 2022-ci NATO ilə Azərbaycan arasında əməkdaşlığın 30-cu ildönümüdür". Parlament üzvü vurğulayıb ki, Vətən müharibəsində qazandığımız Zəfərdən sonra Azərbaycanın regionda yaratdığı reallıq NATO tərəfindən də qəbul edildi. Alyansın bu ilin iyun ayında Brüsseldə keçirilmiş Zirvə görüşünün yekun mətnindən keçmiş Ermənistan-Azərbaycan münaqişəsinə istinad edən bənd çıxarıldı: "Azərbaycan və NATO arasında praktiki əməkdaşlığın əsas istiqamətlərini müdafiə və təhlükəsizlik sektorunda islahatlar, beynəlxalq əməliyyatlarda iştirak, fövqəladə hallara hazırlıq, təhlükəsizlik ilə əlaqəli olan elmi və ekoloji məsələlər təşkil edir".

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# Paketlər ləğv olunmalıdır

## Tibbi sığorta bütün vətəndaşları əhatə etməlidir

**Parlamentin Mədəniyyət Komitəsinin sədri Qənirə Paşayeva dərmanların qiymətindən şikayətlənib.**

Millət vəkili Milli Məclisin ötən iclasında "Tibbi sığorta haqqında" qanuna təklif edilən dəyişikliklərin müzakirəsi zamanı həm ölkəmizdə, həm də dünyada sonsuzluq probleminin getdikcə artdığını bildirib. Deputat təklif edib ki, sonsuzluqdan əziyyət çəkən ailənin süni mayalanma ilə bağlı bir dəfə xərci icbari tibbi sığorta çərçivəsində qarşılansın: "Sonsuzluğun müalicəsində istifadə olunan dərmanların da qiymətləri olduqca yüksəkdir. Çox xahiş edirik ki, müvafiq qurumlar bu məsələyə baxsınlar. Hər bir ailə üçün övlad sahibi olmaq önəmli məsələdir. İnsanlar bilir ki, tibbin imkanlarının onlara kömək olması mümkündür. Amma pulsuzluğa görə bundan istifadə edə bilmirlər. Biz bunu icbari tibbi sığorta çərçivəsində qarşılaya bilsək, nə qədər boşanmaların qarşısını ala bilərik. "Reproduktiv sağlamlıq haqqında" qanunun da artıq qəbul olunmasına çox ciddi ehtiyac var".

**Azərbaycan Dövlət Tibb Universitetinin professoru, tibb üzrə elmlər doktoru, professor Adil Qeybulla "Şərq"ə açıqlamasında bildirib ki, icbari tibbi sığortanın tətbiqi bütün vətəndaşları əhatə edir:**

"Buna görə də dövlətin sosial müdafiə məqsədilə yaratdığı bütün paketlər ləğv olunmalı, ana və uşaq mühafizəsi, vərəm əleyhinə, diabetik, ankoloji xəstələr üçün ləğv edilib, icbari tibbi sığorta paketinə keçməlidir. Süni mayalanma bahalı bir prosedur olduğu üçün bəzən əsassız yerə aparılır. Xəstələr tam müayinə olunmur. Dövlət nəzarəti altında xəstənin süni mayalanmaya konkret göstərişi olması müəyyən edilməlidir. Bir dəfə verilən şans yaxşı olardı ki, çox etibarlı şəkildə təmin edilsin. Uğurlu sonluqla bitsin. Bildiyimiz kimi, süni mayalanma nəticəsinə təminat yoxdur. Bundan başqa, süni mayalanma prosesində demoqrafiya, milli kimlik kimi digər nüanslar mövcuddur. Belə məsələlərə də dövlət nəzarət etməlidir. Həmçinin anonimliyin qorunması ilə vətəndaşların hüquqlarının müdafiəsini də hökumət diqqətdə saxlamalıdır".

**Sücayət Mehti**

# Sertifikatsız dərmanlar...

## "Kütləvi halda gömrükdən keçirirlər"



**Bakı şəhəri üzrə 22, digər rayonlar üzrə 8 olmaqla 30 aptekdə monitorinqlər keçirilib. 01.01.2022-14.02.2022-ci il tarixləri ərzində keçirilən yoxlamalar nəticəsində 58 dərman müsadirə olunub. Ələ keçirilən qeydiyyatsız və sertifikatsız dərman vasitələrinin sayı 90.4 qutu təşkil edib.**

*Sertifikatsız dərmanların əczaxanalara gətirilməsi ilə bağlı "Şərq"ə danışan tibb və fəlsəfə elmləri doktoru Şəmsiyyə Namazlı bildirib ki, son dövrlərdə sertifikatsız dərmanlar çox az müşahidə olunur:*

"Bu cür dərmanları müəyyən şirkətlər kütləvi halda gömrükdən keçirirlər. Qanunsuzluğa yol verən dərman fabrikinin, şirkətin, bunu ölkəmizə keçirənlərin, apteklərə paylayanların hər birinin üzərinə məsuliyyət düşür. Onlar ciddi şəkildə cəzalandırılmalıdır. Dərmanların harada, necə hazırlandığının müəyyən edilməsi əhəmiyyətlidir. Ən əsası tərkibi bilinməyən dərmanların kənarlaşdırılması üçün yoxlamalar keçirilməlidir".

**Ş.Namazlı qeydiyyatsız dərmanları ortaya çıxarmağın yolunu da göstərib:**

"İnternetdə axtarış verəndə heç bir məlumat çıxmırsa, deməli həmin dərman saxtadır. Savadlı, təcrübəli həkimlər belə dərmanları məsləhət görmür. Həkimlər də dərmanların xarakteristikasını bilməli, mənfi və müsbət təsirlərindən xəbərdar olmalıdır".

**Xanlar Əlibəy**

# Hələ baş sındırırlar

## Şərtlər ağırdır, tələbələr təhsil kreditlərinə yaxın düşə bilmirlər





### "Şərq"in apardığı araşdırma vəziyyətin ürəkaçan olmadığını üzə çıxardı

**2021-2022-ci tədris ilinin payız semestri üzrə təhsil tələbə krediti almaq üçün müraciətlərin qəbulu başa çatıb.**

**Bu barədə Təhsil Nazirliyindən bildirilib. Bugünədək tələbə krediti üçün 5 651 müraciət qeydə alınıb. Onlardan 2 447-si rəsmiləşdirilib, təhsil haqqı ödənilib.**

Fevralın 16-dan cari tədris ilinin yaz semestri üçün təhsil tələbə kreditinə müraciətlərin qəbuluna yenidən start verilib.

Qeyd edək ki, təhsil tələbə kreditinin ayrılmasında məqsəd təhsilin hamı, xüsusilə də əhalinin aztəminatlı təbəqələrindən olan şəxslər üçün əlçatanlığının təmin edilməsi, təhsildə bərabər imkanların yaradılması və təhsilin əhatə dairəsinin genişləndirilməsidir.

Bəs, tələbələr bu imkandan yetərincə yararlana bilirlərmi?

*"Şərq" bu barədə tələbələrin fikirlərini öyrənib.*

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Kulturologiya fakültəsinin 3-cü kurs tələbəsi, universitetin Tələbə Gənclər Təşkilatının sədri Əlirza Əlizadə yaradılan imkanın ehtiyacı olan hər kəs üçün əlçatan olmadığını düşünür:**

"Özüm dövlət sifarişi əsasında təhsil alsam da, ixtisas qrupumda, universitet yoldaşlarım və dostlarım arasında ödənişli əsaslarla təhsil alan tələbələr var.

Onlar təhsil krediti üçün müraciət etdikləri zaman bu barədə kiçik bir araşdırma apardım. Qismən qane edir. Amma bütün tələbələr üçün əlçatan deyil".

Tələbə eyni zamanda kredit üçün müraciət edən bəzi dostlarının buna müvəffəq ola bilmədiyini vurğulayıb:

"Çünki bəzi şərtləri qarşılaya bilmədilər. Səhv etmirəmsə, ödənişə görə 20 faizinin maddi imkanları uyğun olmadı".

**Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin 3-cü kurs tələbəsi Züleyxa Ağamalıyevanın sözlərinə görə isə tələbə təhsil kreditləri çox yaxşı təşəbbüsdür:**

"Lakin, tələbə yoldaşlarımın üzləşdiyi problemlərdən gördüm ki, sistemdə problemlər var. Məsələn, onlardan biri kredit almaq üçün ərizə ilə müraciət etsə də, çox gec cavab verildi. Bir tərəfdən də universitet illik ödənişi ödəməsi üçün sıxışdırır. Tələbə də çətin vəziyyətdə qalır. Buna görə də, işlərini daha operativ görməlidirlər.

Tələblərin də yumşaldılmalı olduğunu düşünürəm. Əlavə olaraq, universitetin də ÜOMG-si (ümumi orta göstərici) də nəzərə alınmalıdır".

**Azərbacan Dövlət İqtisad Universitetində təhsil alan Sabir Hacızadə tələbə-təhsil kreditinin verilməsinin təhsilin əlçatanlığını artıracağını bildirib:**

"Düşünürəm ki, həm sosial həssas qruplardan olanlara, həm də standart əhaliyə bu kreditin verilməsi maddi vəziyyətlə əlaqədar universiteti bitirə bilməyən tələbələrin sayını azaldacaqdır. Təbii ki, kredit verilərkən tələbənin giriş balına və yaxud qiymət göstəricilərinə baxılması müsbət addımdır. Lakin, bəzən maddi durumu kasad olan bir tələbənin qiymətinin aşağı olması və ya kəsiri olması kreditdən istifadə edə bilməməsinə səbəb olacaq. Bu tələbənin vəziyyətinə həmin kreditlərin bir təsiri olmadığını göstərir. Faizlərin tələbələr üçün yuxarı olması, xaricdə təhsil almaq istəyən tələbələr üçün də bu kreditin verilməməsi digər mənfi amillərdir. Azərbaycanda ilk dəfədir tətbiq edilən bu prosedurun yaxın gələcəkdə problemlərin aradan qaldırılması ilə əlçatanlığını bir az da artıracağına ümid edirəm".

**Məsələ ilə bağlı açıqlama verən təhsil üzrə ekspert Elçin Əfəndi də şərtlərin sərt olduğunu bildirib:**

"Ümumilikdə çox az tələbə bu kreditdən yararlana bilir. Halbuki, biz bu tələbələrin sayının daha çox olmasını istəyirdik. Ölkədə ödənişli əsaslarla təhsil alan tələbələrin sayı 146 373 nəfərdir. Onların içərisindən cəmi 3000-3500 nəfər bu kreditdən yararlana bilir. Krediti köçən tələbələrin sayı olduqca azdır. Qaydalar bir qədər yumşaldılmalıdır. Hazırkı sərt qaydalar ürəkaçan deyil.

İki növ kredit almaq imkanı var. Sosial həssas qrupdan əhaliyə daxil olan və standart kredit alan tələbələr var. Birinci qrupda kimlərin olduğu bəllidir. Ancaq ikinci qrupa sadəcə 71 baldan yuxarı göstərici əldə edənlər aid edilir.

Ödənişli əsaslarla təhsil alan 126 173 tələbədən 80 930-u bakalavr, 851-i isə magistr pilləsinə aiddir. Digər 34 392 nəfər subbakalavrdır. Qalan 20 mindən çoxu məcburi köçkün və ya digər statusu olan tələbələrdir ki, onların təhsil haqqı onsuzda dövlət tərəfindən qarşılanır. Yəni onlar təhsil haqqından birbaşa azaddırlar.

Bunları nəzərə alanda ortaya belə bir nəticə çıxır ki, ümumilikdə 56 208 tələbə kredit götürə bilər. Ancaq şərtlərə görə təəssüf ki, bu say təxminən 3500 nəfər oldu. Ona görə də, yaz semestrində qaydalar yumşaldılmalıdır ki, tələbələrin bu kreditdən yararlanma imkanları genişlənsin".

**Sənan İsmayıl**

# İnsanların stresə dözümü yoxdur

## Ər-arvad arasındakı münasibət ilk 2 il çox yaxşı keçir, sonra bir soyuma başlayır



**2021-ci il ərzində ölkədə Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 56 314 nikah və 17 191 boşanma halı qeydə alınıb.**

Dövlət Statistika Komitəsindən verilən məlumata əsasən, əhalinin hər 1 000 nəfərinə nikahların sayı 2020-ci ilə nisbətən 60 faiz artaraq 5,6 olub.

Boşanma səviyyəsi isə 13,3 faiz artaraq 1,7 təşkil edib.

Nikah səviyyəsi Bakı şəhərində (6,2), Şəki-Zaqatala (6,1), Dağlıq Şirvan, Qarabağ və Quba-Xaçmaz (5,9) iqtisadi rayonlarında və Naxçıvan Muxtar Respublikasında (5,8), boşanma səviyyəsi isə Bakı şəhərində (2,3), Abşeron-Xızı, Gəncə-Daşkəsən və Şərqi Zəngəzur (2), Qarabağ (1,8) iqtisadi rayonlarında ölkə göstəricilərindən yüksək olub.

### *Psixoloq: "Ortaq olan sevinclər, fikirlər, maraqlar və söhbətlər əlaqələri gücləndirir"*

Dünyanı sevgi qurtaracaq deyirlər. Lakin son zamanlar insanların bir-birinə məhəbbətinin azaldığı müşahidə olunur, hətta boşanma ilə nəticələnir. Hər il artan ayrılıqların səbəbi müxtəlifdir. Maddi və mənəvi boşluqlar, cütlüklər arasında fərqlilik, anlaşılmazlıq, psixoloji təzyiq, aqressiya və s. məsələlər bu cəhətdən problem yaradır.

**Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən psixoloq Mədinə Rəsulova boşanmaların səbəblərini izah edib:** "Bir çox faktorlar boşanmalara səbəb olur. Ölkəmizdəki insanların stresə dözümlülüyü aşağı səviyyədədir. Bu da boşanmalarda özünü büruzə verir. Ər-arvad arasındakı münasibət ilk 2 il çox yaxşı keçir. Çünki "aşiqlik" dediyimiz mərhələ var ki, o zaman problemlər meydana gəlmir. 2 il keçəndən sonra individual olaraq şəxslərin ehtiyacları üzə çıxır və qarşı tərəf də bunları ödəyə bilmir. Tələbatlar qarşılanmadıqda artıq soyuma yaranır. "Mənim adamım deyil", "Bir-birimizi başa düşmürük", "Məni anlamır" kimi fikirlər yaranır".

**Psixoloq münasibətlərin davamlılığını sürdürən nüanslardan bəhs edib:** "Ortaq olan sevinclər, fikirlər, maraqlar və söhbətlər əlaqələri gücləndirir. Dərdlər də aradakı bağlılığı artırır. Ortaq problemlər olanda hərə öz tərəfinə çəkilə bilmir, fikir fərqliliyi olmur, inciklik qalmır. Ona görə də münasibətlər başlayan gündən qarşı tərəflə olan ortaq nöqtələri müəyyənləşdirmək və onları dəyərləndirmək lazımdır".

**Cəmilə ƏZİM**

# "Çalışmalıyıq ki, xalqın bir-birinə dəstəyi artsın"

## Əhməd Qəşəmoğlu: "Təmtəraqdan, maddi üstünlük kimi mənfi xüsusiyyətlərdən uzaqlaşmaq lazımdır"



**Azərbaycan cəmiyyətində illər öncə insanların bir-birinə dəstək verməsini Hacı Zeynəlabdin Tağıyev də sübut etmişdi. Vətən müharibəsində arxa cəbhənin çalışqanlığı, xalqın ön cəbhəyə etdiyi yardımları insanlarımıza sevginin aşılandığını göstərir. Sosial şəbəkələrdə xalqımızın birliyini nümayiş etdirən status paylaşılıb:**

"Bir gün işdən evə qayıdanda, binanın giriş qapısında bir elana rast gəldim. Elanda yazılıb:

"Bu gün pensiyamı almışam və bu pulun 20 manatını itirmişəm. Bu pula çox ehtiyacım var. Binanın həyətində kim tapsa, xahiş edirəm 45-ci mənzilə gətirib, mənə çatdırsın. Çox sağ olun".

Çox düşündürdü bu yazı məni. Cibimdəki 40 manatın 20-sini ayırıb, həmən mənzilə yollandım. Qapını döydüm və yaşlı bir qadın qapını açdı. Tək yaşadığı bəlli olurdu. Pulu ona uzadıb dedim: " Sizin elanı gördüm. Pulu mən tapmışam. Buyurun pulunuzu". Qadının gözləri doldu və dedi: "Oğul mən pulumu tapmışam. Amma sən dördüncü gəncsən ki, bu gün mənə 20 manat gətirirsən. Allah sizin kimi gənclərə görə, bu xalqa rəhm eləsin. Amin!"

**Xalqımızın mənəvi dəyərləri barəsində danışan sosioloq-alim, professor Əhməd Qəşəmoğlu "Şərq.az"a bildirib ki, Azərbaycan xalqının birliyinin tarixi qədimdir:**

"Xalqın psixologiyası, davranışı, dəyərləri barəsində kifayət qədər məlumat toplamışam. Məlumatlar göstərir ki, xalqımız mənəvi dəyərlərə üstünlük verir. Vətən savaşı da mənəvi dəyərlərin qabarıq formada özünü göstərməsinə təsir göstərdi. Xalqımız 100, 300 il öncə də mənəvi xüsusiyyətləri diqqətdə saxlayıb. Bəzən isə dəyərlərə qarşı mənfi proseslərin getdiyini müşahidə edirik. Buna ən çox maddi məsələlər təsir edir. Təmtəraqdan, maddi üstünlük kimi mənfi xüsusiyyətlərdən uzaqlaşmaq lazımdır. Maddi dəyərlərin mənəvi dəyərləri sıxışdırmasına icazə verməməliyik. Çalışmalıyıq ki, xalqın bir-birinə dəstəyi artsın".

**Xanlar ƏLİBƏY**



# "Mən çox utancaq qadınam"

## Ayan Mirqasımova: "Azərbaycan kinosu açıq-saçıq səhnələrə hazır deyil"

**"Mən açıq-saçıq səhnələr olduğu üçün bir neçə filmdən imtina etmişəm".**

**Bu sözləri Xalq artisti Ayan Mirqasımova APA-ya müsahibəsi zamanı deyib.**

**O qeyd edib ki, bir neçə tamaşada təklif olunan roldan da imtina edib:**

"Mən çox utancaq qadınam. Bu mənə anamın südü ilə keçib. Mən o qədər də cəsur adam deyiləm. Düşünürəm ki, Azərbaycan kinosu açıq-saçıq səhnələrə hazır deyil".

**Aktrisa əlavə olaraq bildirib ki, məşhur bir rejissorumuz ona filminə çəkilməyi təklif edib:**

"Mən məhz açıq-saçıq səhnələri çıxaracağı halda çəkiləcəyimi demişdim. O isə çox prinsipial rejissor olduğunu və sözügedən səhnələri çıxarmayacağını demişdi. Rejissor Rusiyadan azərbaycanlılara bənzəyən bir aktrisa tapıb onu çəkdi".

**A.Mirqasımova "Yuxu" filminin onu daha çox tanıtdığını vurğulayıb:**

"Razıyam, "Yuxu" məni daha çox tanıtdı. Mənim çəkildiyim filmlər əsasən festival filmləridir. Həmin filmləri heç televiziyalarda da çox göstərmirlər. Düşünürəm ki, "Ovsunçu" filmi daha tez-tez göstərilə bilər. Necə ki, "Yeddi oğul istərəm" filmini tez-tez göstərirlər. "Ovsunçu" da o filmlə eyni dövrdən bəhs edir, sadəcə başqa rakursdan".


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**


## "Avroviziya-2022"də Azərbaycanı təmsil edəcək şəxsin adı açıqlanıb



**"Avroviziya-2022" mahnı müsabiqəsində Azərbaycanı təmsil edəcək şəxsin adı açıqlanıb.**

Bu barədə İctimai Televiziya və Radio Yayımları Şirkətindən məlumat verilib.

Bildirilib ki, Azərbaycanı İtaliyanın Turin şəhərində "Səs Azərbaycan" müsabiqəsinin qalibi, ifaçı Nadir Rüstəmli təmsil edəcək.

*Qeyd edək ki, İtaliyanın Turin şəhərində keçiriləcək və şüarı "The sound of beauty" ("Gözəlliyin səsi") olan "Avroviziya-2022" mahnı müsabiqəsinin yarımfinal mərhələləri may ayının 10 və 12-də, final mərhələsi isə mayın 14-də "PalaOlimpico"da baş tutacaq.*

## Gülay onun üçün yardım istədi



**Müğənni Gülay Zeynallı "Xalq ulduzu" yarışmasında birlikdə çıxış etdiyi Şəhla Həmidovanın salonda masaj ustası çalışmasına reaksiya verib.**

Sənətçi onun üçün aparıcılara müraciət edib. Gülay Şəhla üçün yardım istəyib:

"Şəhla xanımla "Xalq ulduzu"nun ifaçıları olmuşuq. Çox gözəl sənəti, həzin səsi var. Allah yolunu açsın, sənətini davam etdirsin. Heyifdi o səs, o sənət.Televiziya aparıcıları, xahiş edirəm, belə sənətçilərə dəstək olun. Siz axı bunu bacarırsınız".

## İlk dəfə böyük qızı ilə fotosunu paylaşdı



**Xalq artisti Mələkxanım Eyubova ilk dəfə böyük qızı Höküməxanımla fotosunu paylaşıb.**

Olay xəbər verir ki, sənətçi doğum günü münasibətilə onu təbrik edib. Höküməxanımın anası və bacısı Nəzrinlə oxşarlığı diqqət çəkib.

*Qeyd edək ki, xanəndənin iki qızı və iki oğlu var.*

**Elan**

Quliyev Sənan Baxşəli oğlunun adına verilmiş SQ 0017-394 saylı hərbi vəsiqə itdiyi üçün etibarsız sayılır.

# Bu nə yanaşma, nə təffükrdür?

## Sənubər İsgəndərli yaşlı aktyorların təqaüdə göndərilməsini tənqid edib

**"Anam həddən artıq sərt idi, hər şeyi qayda-qanunla edirdi, başqa insan idi. Atam arxayın idi ki, anam məni necə lazımdır tərbiyə edəcək. Atamın da xasiyyəti asan deyildi. Anamı tez itirmişəm.**

Sağ olsaydı, baxmayacaqdı ailə qurmuşam-qurmamışam, sənətə gəldim-gəlmədim, qanunlar keçərli olmalıydı. Sənətə gələndə ailə qurmuşdum. Atam da dedi ki, qarışmıram, həyat yoldaşın var. Anam sağ olsaydı, gələrdi yoldaşımın yaxasından yapışardı".

*Bu sözləri Əməkdar artist Sənubər İsgəndərli "Özəl" proqramında deyib. Aktrisa mərhum anasından, onun sərt xasiyyətindən bəhs edib.*



**S.İsgəndərli aparıcı Kazım Sübhanın "Hazırda yayımlanan "Camdakı kız" serialını xatırlatdı mənə" sözlərinə "İnanın ki, eyni. Bəzi hallarda isə tam eyni idi" cavabını verib.**

"Anam məni vururdu da, sərt idi. Onun qayda-qanunundan bir az kənara çıxdınsa... Mənim əlim gəlmədi övladıma əl qaldırım. Onu pambıq içində saxladım, buna da peşmanam. Bir az azadlıq vermək lazımdır. Qızım məktəbə də mənlə gedib gəlirdi. Mağazadan, həyətdən xəbəri olmadı. Buna görə də peşmanam" deyə, aktrisa əlavə edib.

**S.İsgəndərli yaşlı aktyorların təqaüdə göndərilməsini tənqid edib:**

"Bir yaradıcı insanı məhv etmək istəyirsənsə, onu təqaüdə göndər. Yaşı ötmüş aktyorları təqaüdə göndərmək kimi ideya var. Bu yöndə işlər gedir. Bunun qəti əleyhinəyəm. Bizdə Ağasadıq Gəraybəyli 80-dən çox yaşı var idi, "Sevil" tamaşasında oynayırdı. Aktyorun əqli yerindədirsə, fiziki imkanları varsa, niyə təqaüdə göndərirsiniz? Onu öldürmək istəyirsiniz? Nə yanaşma, nə təffükrdür? Yaşlı adamdır, deyirlər, çəkil kənara mən gəlirəm. Sən də gəl, yaşlı adamın iş təcrübəsi sənə lazım deyil? Bəhrələn... Teatrda gənc rolu mən oyanamayacam ki... Gənc aktrisa oynayacaq. Hər kəsin öz rolu, öz yeri var".

# Faiq Ağayevin nə kredit borcu var, nə də bank kartı

## Niyaməddin Musayev isə illər əvvəl telefonunu kreditə götürdüyünü deyib



**Müğənnilər bu dəfə kredit borclarından danışıb. "Şourum" verilişi bu dəfə sənət adamlarından banka olan borclarını soruşub.**

*Müğənni Nadir Qafarzadə* "Yaralı yerimdir, qorxuram. Kreditli həyatdan qorxuram. Son 10 ildə kredit nədir bilmirəm. Ona görə də başım dinc, yuxum şirindir" sözlərini söyləyib.

*Müğənni Günay İbrahimli* isə "Kredit mənə düşmür. Problemim çoxalır. Əvvəl maşın üçün kredit götürmüşəm, 50 min manat ödəmişəm" deyə, bildirib.

*Əməkdar artist Ədalət Şükürov* isə "Ev, maşın götürəndə kreditim olub. Vaxtında qaytarmışam, indi yoxumdur" sözlərini əlavə edib.

*Müğənni Damla* "2-3 aylıq kreditim var, o da bitər. Maşın götürmüşəm. Kredir xəstəlikdir, bitirən kimi yenə nəsə götürürsən" cavabını verib.

*Müğənni Elvin Abdullayev* "Maşın kreditim olub, 51 min manat" sözlərini bildirib.

*Müğənni Sevda Yahyayeva* isə avtomobilini kreditə götürüb. O bildirib ki, 3 il kredit ödəyib.

*Xalq artisti Natiq Şirinov* isə hazırda hamının kreditinin olduğunu açıqlayıb. "Maşın, soyuducu, paltaryuyan kreditim var. İndi krediti olmayan var?" deyə, nağara ifaçısı bildirib.

*Xalq artisti Niyaməddin Musayev* isə illər əvvəl telefonunu kreditə götürdüyünü deyib.

*Xalq artisti Faiq Ağayev* isə nəinki krediti, heç bank kartı da olmadığını açıqlayıb.


Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 476



## Yeni metod

### Alimlər miqrenin dərmanını yaşıl işıqda tapdılar

**Müəyyən uzunluqda işıq şüalarının xəstəyə yönləndirilməsi miqren ağrılarını azaldır.**

Medicina.az xəbər verir ki, Arizona Universitetinin alimləri klinik təcrübə əsasında sübut ediblər ki, müntəzəm olaraq yaşıl işıqla şüalandırma xəstələrin miqren ağrılarını və tutmalarını azaldır.

Cəmi 2 ay belə terapiya (gündə 2 saat yaşıl işıq tətbiqi) eksperiment iştirakçılarında miqren tutmaları 2 dəfə azalıb.

Professor Mohab İbrahimin sözlərinə görə, fototerapiya-işıqla müalicəvi gözləntilərini üstələyib.

"Bu metod son zamanların ən çətin nevroloji pozuntusu olan miqrenin müalicəsində əlavə yanaşma olacaq".

Miqren dərman müalicəsinə tabe olmur, güclü ağrıkəsicilər isə xəstələrə zərər verir.

Ona görə xroniki ağrıların müalicəsində hazırda tibbin əlində botoks iynəsi, tibbi hipnoz, psixoterapiya və işıq terapiyası tətbiq oluna bilər.

Alimlərin siçanlar üzərində də mavi və yaşıl işıqla şüalandırma təcrübəsi onlarda müxtəlif xroniki ağrıları azaltdığını sübut etmişdi.

## İnternet ulduzuna çevrilib

### Videoqraf itinə uçmağı öyrədib



**Uka adlı it sahibi ilə birlikdə yamac paraşütü ilə məşğul olmağa başlayandan sonra internet ulduzuna çevrilib.**

Oxu.az xəbər verir ki, İtin "şöhrətə gedən yolu" elə də asan olmayıb: Əvvəlki sahibləri onu iki dəfə tərk ediblər.

Ukanın yeni sahibi, fransız videoqraf, itin heç də yüksəklikdən qorxmadığını görüb və ay yarım ərzində dördayaqlıya yamac paraşütü ilə uçmağı öyrədib.

Lakin Ukanın hesabında ondan çox uğurlu uçuşun olmasına baxmayaraq, heyvan müdafiəçiləri itin hava 888

## Məryəm Uzərli qızlarıyla tətilə çıxıb!

### Dubay pozalarına bəyənmə yağdı



**"Möhtəşəm Yüzil"də canlandırdığı "Hürrəm Sultan" xarakteriylə populyarlıq qazanan Məryəm Uzərli, qızları Lara və Lily Koi ilə tətil üçün Dubaya gedib. "Şərq" türk mediasına istinadən xəbər verir ki, məşhur aktrisa qızlarıyla hovuzda keçirdiyi əyləncəli anları, ictimai media hesabından yayıb və böyük bəyənmə qazanıb. 38 yaşlı Məryəm Uzərlinin uşaqları sevincək hallarıyla ictimai mediada böyük marağa səbəb olub. Bu arada 8 yaşlı Laranın anasına bənzərliyi də diqqət çəkib.**

**Turan**

## Qızı ilə rol aldığı serialı 5 milyon dəfə izləndi



**Türkiyənin məşhur aktyoru Mehmet Günsür qızı Cloe ilə kamera qarşısına keçib.**

**Olay xəbər verir ki, İtaliyada bir serialda rol alan ata-qız rekord qırıb.**

**"Rai-1" kanalında yayımlanan serialın ilk bölümü 5 milyon şəxs tərəfindən izlənilib.**

**Eyni gün "İnter Milan-Roma" futbol oyununu geridə qoyan serial izləyicilərin 22,4 faizinə çatıb.**

**Mehmet "Lea" ( Yeni bir gün) adlı ekran işində bir musiqiçini canlandırır. Onun istəmədən bir qız övladı dünyaya gəlir və uşağın anası onları tərk edir. Hekayə də bundan sonra başlayır.**

## Köpək balığının hücumu

### Hadisə nəticəsində bir nəfər ölüb



**Avstraliyanın Sidney şəhərində çimərlikdə köpək balığı hücumu nəticəsində bir nəfər həlak olub.**

**Trend bildirir ki, bu barədə Yeni Cənubi Uels ştatının polisi bildirib.**

**Qeyd olunur ki, köpək balığının hücumu barədə məlumat alandan sonra xilasedicilər suda bir nəfərin meyitini aşkar edib.**

**Ətraf çimərlik zonası sakinlər üçün bağlanıb.**

**Bu, 1963-cü ildən sonra Sidneydə insan ölümü ilə nəticələnmiş ilk köpək balığı hücumu olub.**

**2022-ci ilin əvvəlindən Avstraliyada dörd bu cür hücum qeydə alınıb, lakin heç bir halda ölüm baş verməyib.**








# Kampaniya başlayıb



### Qadınlar qatarlarda özəl vaqonlar tələb edir

**Şotlandiyada ciddi müzakirə mövzularından biri ictimai nəqliyyatda qadınlara xüsusi qatar vaqonlarının ayrılmasıdır.**

"Şərq" "Milliyet.com"a istinadən bildirir ki, qadınların ictimai nəqliyyatda daha güvənli səyahət etmələri üçün kampaniya başladan qruplar ölkə qadınlarına "gecə saatlarında təkbaşına evə dönən bir qadınsınızsa, yalnız qadınlara məxsus metro və ya qatar vaqonunda özünüzü daha təhlükəsiz hiss edərsinizmi?" sualı ilə müraciət edib. Qrupun mülahizəsi budur ki, qadınlar məxsusən onlara ayrılmış metro və ya qatar vaqonunda özlərini daha təhlükəsiz hiss edəcəklər. Şotlandiya muxtariyyətinin yeni nəqliyyat naziri xanım Jenny Gilruth parlamentdəki çıxışı zamanı özünü qatarlarda təhlükəsiz hiss etmədiyini bildirib. Nazir təyin edilməzdən əvvəl müəllim işləyən Gilruth deyib ki, o da gec saatlarda evə dönərkən qatara minməyə ehtiyat edirdi, çünki vaqonlar sərxoş kişilərlə dolu olurdu və onlar qadınlara tərəf çox sıx əyləşirdilər. Bu isə qadınları rahatsız edir və qorxudurdu. Nazir deyib ki, qatarların qadınlar üçün təhlükəsiz nəqliyyat vasitəsi olmasını arzulayır. Hökumət olaraq bu problemi çözmələri gərəkdir. Nazir bununla bağlı qadın təşkilatlarıyla əməkdaşlıq edəcəklərini də deyib. Nazirin aldırdığı problem şotland qadınların ürəyincə olub. Şotland qadınlar gecə qatarlara minməkdən çəkindiklərini təcavüzə uğramaqdan qorxduqlarını deyiblər. Dəmiryolu işçiləri Həmkarlar Təşkilatı isə bu problemin çözülməsinin çox çətn olacağını bildirib.

**Məlahət**



# Qızını qorumağa çalışdı

### Gülləyə qurban getdi

**İstanbulun Şişli bölgəsində iyun ayında silahlı şəxslərin açdığı atəş nəticəsində həyatını itirmiş 48 yaşlı Okan Karatenin ölümü ilə bağlı məhkəmə prosesi keçirilib. "Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, O.Karatenin ölümündə şübhəli bilinərək həbs edilmiş şəxslər məhkəmədə özlərini təqsirkar saymayıb.**

Havaya atəş etdiklərini deyən şübhəlilər O.Karaten və ya körpə uşağı nişan almadıqlarını israr ediblər. O.Karatenin həyat yoldaşı Elanur Karaten isə həmin faciəli gündə baş verənləri anladıb: "O gün qızımızı parka gəzintiyə çıxarmışdıq. Gözlənilmədən atəş səsləri gəldi. İki qrup insan atışmağa başladı. Şübhəlilərdən məhkəmədə olan Yunus Aksak yoğuşdan aşağıya atəş edərək enirdi. Körpənin arabasına doğru atəş edirdi. Bunu görən Okan körpəmizi qorumaq üçün arabanın üzərini bədəni ilə örtdü. Güllə də Okanın başından dəydi". O.Karaten başından aldığı güllə nəticəsində hadisə yerində keçinib. Hadisə ilə bağlı istintaq aparan İstanbul Cümhuriyyət Baş Prokurorluğu 9 nəfər barəsində saxlanma qərarı çıxarıb, onlardan 5-i saxlanılaraq istintaqa cəlb edilib. Şübhəlilərdən biri aldıqları torpaq sahəsi ilə bağlı mübahisə yarandığını, qarşı tərəfin silaha əl atdığını, onların da qorxu və həyəcan içində silaha əl atdıqlarını, lakin havaya atəş etdiklərini deyib. Bir başqası da olayla heç bir əlaqəsi olmadığını söyləyərək azad edilməsini istəyib. Şübhəlilərdən biri - Osman Turan isə Okan Karatenin kim tərəfindən vurulduğunu görmədiyini, orada bir neçə nəfərdə silah olduğunu və atəş açdıqlarını deyib. Yunus Aksak da kimsəni öldürmək niyyətində olmadığını, lakin belə bir faciəli hadisənin mərkəzində qaldığı üçün çox peşmanlıq çəkdiyini deyib. O.Karatenin həyat yoldaşı Elanur isə insanların sıx toplaşdığı parkda atəş açanların günahkar olduqlarını, qızının atasız qalmasına səbəb olanların cəzalandırılmasını tələb edib: "Onlar havaya, yerə atəş açmırdı. İnsanların olduğu yerə doğru atəş açırdılar. Kimsə orada öləcəkdi. Bu, mən və ya qızım da ola bilərdi. Amma həyat yoldaşım öldü. Silahlar körpənin arabasına tuşlanmışdı. Bu adamlar hələ utanmadan mənə başsağlığı verirlər. O gündən sonra qorxu içindəyəm. Uşağı gəzintiyə çıxara bilmirəm. Sanki yenidən o dəhşətli anlar təkrarlanacaq. Avtomobilə də arxa avtoparkda minirəm. Çünki qorxuram".

**Məlahət**

## Bill Qeyts açıqladı

### Soyuqdəymə və qripdən xilas ola bilərik



**"Microsoft"un qurucusu Bill Qeyts mRNT texnologiyasından istifadə edən peyvəndlərin soyuqdəymə və qripi aradan qaldıracağını bildirib.**

Qeytsin bu açıqlaması qısa zamanda dünyada böyük əks-sədaya səbəb olub.

"Şərq" xəbər verir ki, Qeyts, bunu iştirak etdiyi podkastda canlı yayımda çıxış edərkən bildirib. O, koronavirus peyvəndlərində istifadə edilən mRNT peyvəndlərinin digər xəstəliklərdə də təsirli ola biləcəyini vurğulayıb: "Bu, yalnız pandemiya peyvəndləri üçün yaxşı deyil, biz mRNT-dən daha yaxşı qrip peyvəndi hazırlamaq üçün istifadə edəcəyik. Əgər yaxın on ildə investisiyalarla məhsul istehsal etsək, məncə, həqiqətən, qrip və soyuqdəymədən xilas ola bilərik".

**Çimnaz Şahlar**

## Cəfəri bir çox dərdin dərmanıdır

### Təbii vasitələrlə orqanizminizi sağlam saxlamaq mümkündür



**Cəfəri bir çox xəstəliklər üçün dərman vasitəsi ola bilər. Buna görə də çalışın, bir yeriniz ağrıyanda ilk dərmana qaçmayın. Təbii vasitələrlə də orqanizminizi sağlam saxlamaq mümkündür.**

Axşam.az xəbər verir ki, cəfəri insan orqanizmi üçün vacib olan fosfor, kalium, selen, A və B qrup vitaminlərlə zəngindir. Cəfərinin tərkibində olan C vitamini limondan dörd dəfə çoxdur. Menstrual dövrü tənzimləmək üçün cəfəri tumlarından hazırlanmış cövhər faydalıdır: 4 çay qaşığı cəfəri tumunun üzərinə bir stəkan qaynar su əlavə edərək, buxar üzərində 15 dəqiqə saxlayın. Soyuduqdan sonra süzün və gündə 5-6 dəfə yemək arası 1 xörək qaşığı qəbul edin.

Ağrılı aylıq tsikl və uşaqlıq qanaxmaları zamanı cəfəri kökü və otundan hazırlanmış cövhər qəbul etmək məsləhətdir: 2 x. qaşığı xırda doğranımış qarışığın üzərinə 2 stəkan qaynar su əlavə edilərək, 4 saat dəmlənir. Sonra süzülür və gündə 4 dəfə 1-2 xörək qaşığı (yeməkdən 30dəqiqə əvvəl) qəbul edilir.

Dismenoreya (gur aybaşı) zamanı da bu bitkinin şirəsini gündə 3 dəfə 1-2 çay qaşığı ilə qəbul edərkən, müsbət nəticə əldə etmək olar.